UOT 342; 349
https://doi.org/10.59849/2710-0820.2023.2.214

**Oruc Məmmədov**
*hüquq üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kollecinin direktoru, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Biznesin idarə edilməsi kafedrasının dosenti*
*oruc_mammadov@mail.ru*
*Azərbaycan*

# KORRUPSİYA HÜQUQPOZMALARINA GÖRƏ DÖVLƏT QULLUQÇULARININ XÜSUSİ NÖV İNTİZAM MƏSULİYYƏTİ: NƏZƏRİ-HÜQUQİ MODELİ

***Açar sözlər:*** *dövlət qulluğu, dövlət qulluqçusu, korrupsiya hüquqpozmaları, xüsusi növ intizam məsuliyyəti*

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrdə korrupsiyaya qarşı mübarizəyə dair məsələ hər bir dövlətin qarşısında duran həlli zəruri olan aktual problemlərdən biri hesab edilir. Buna görə də, müasir dünyanın hər bir ölkəsində və beynəlxalq təşkilatlarda korrupsiyaya qarşı mübarizə geniş vüsət almış, dövlət vəzifəli şəxslərin, o cümlədən dövlət qulluqçularının korrupsiya hüquqpozmalarına görə məsuliyyətinin daha da artırılması, milli və beynəlxalq qanunvericilik bazasının təkmilləşdirilməsi aktual və həlli zəruri olan problemlərdən birinə çevrilmişdir. Təbii və qaçılmaz olaraq bu problem Azərbaycan Respublikasında da bu və ya digər dərəcədə mövcuddur. Lakin, müsbət hal kimi qeyd etmək lazımdır ki, Azərbaycanda korrupsiyaya qarşı mübarizə tədbirləri dövlət rəhbərliyinin daimi diqqət mərkəzində olmuşdur. Azərbayanda korrupsiyaya qarşı mübarizə sahəsində dövlət siyasətinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş, hazırda isə bu siyasət Prezident İlham Əliyev cənabları tərəfindən əzmlə, uğurla davam və inkişaf etdirilərək qətiyyətlə həyata keçirilir, qanunvericilik bazası təkmilləşdirilir, əməli tədbirlər görülür və bir sıra səmərəli institusional mexanizmlər tətbiq edilir.

Dövlət qulluqçularının hüquqi statusunun tərkib elementləri, dövlət və cəmiyyət qarşısındakı öhdəlikləri onların sosial məsuliyyətinin mürəkkəbliyi ilə xarakterizə edilir. Dövlət qulluqçularının hüquqi məsuliyyəti sistemində korrupsiya ilə əlaqədar hüquqpozmaları öz məzmununa və növ müxtəlifliyinə görə fərqlənir. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə məsuliyyətin bütün növləri dövlət qulluğu sistemində təzahür edir. Bu cəhət dövlət vəzifəli şəxslərin, o cümlədən dövlət qulluqçularının səlahiyyət həddi və məsuliyyətinin dərəcəsi ilə xarakterizə edilir. Fikrimizcə, dövlət qulluqçularının intizam məsuliyyətini həm ümumi, həm də xüsusi aspektdə xarakterizə etmək olar. Bu baxımdan demək olar ki, müasir dövrdə korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının hüquqi məsuliyyətinin xüsusiyyətlərinin, onun intizam məsuliyyəti ilə qarşılıqlı əlaqəsinin və xüsusi növ intizam məsuliyyəti kimi xarakterik cəhətlərinin elmi təhlili böyük maraq kəsb edir.

“Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya”nın 2023-2025-ci illərdə icrası üzrə Fəaliyyət Planı”nda “Dövlət qulluqçularının intizam məsuliyyəti ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi”nə dair məsələ öz əksini tapmışdır (6.2-ci yarımbənd) [6]. Fikrimizcə, bu fakt seçilmiş mövzunun aktuallığını xarakterizə edən əsas cəhətlərdən biridir.

Yuxarıda qeyd edilən amillər belə qənaətə gəlməyə əsas verir ki, müasir dövrdə korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinə dair məsələ elmi-nəzəri və təcrübi baxımdan **aktuallığı** ilə seçilir.

Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının intizam məsuliyyətinin ümumnəzəri, hüquqi və təcrübi aspektlərinə dair məsələ bu və ya digər dərəcədə elmi cəhətdən təhlil edilmişdir. Belə ki, dövlət qulluqçularının intizam məsuliyyətinin ümumnəzəri və təcrübi aspektləri: Ə.H.Rzayev, C.S.Vəliyeva, O.C.Məmmədov, M.B.Dobrobaba, S.Y.Çannov, M.V.Presnyakov, V.İ.Mayorov, R.A.Pestov, E.L.Leşina, A.Y.Pankratov, E.İ.Slepnyeva, S.A.Savin, S.S.Tereşuk, L.A.Çernışeva, M.A.Jiltsov və s. müəlliflərin əsərlərində araşdırılmışdır. Lakin, korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinə dair məsələyə toxunulmamış, əsaslı təhlillər aparılmamış, onun müasir konsepsiyası ifadə edilməmiş və nəzəri-hüquqi modeli formalaşdırılmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini müasir dövrdə korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyəti üzrə yaranan ictimai münasibətlər təşkil edir, predmetini isə korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətini şərtləndirən beynəlxalq hüquqi aktlarda və Azərbaycan Respublikasının qanunvericiliyində təsbit olunan hüquqi normalar təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın **məqsədi** korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinin nəzəri-hüquqi modelinə dair elmi və normativ müddəaların təhlilindən ibarətdir. Göstərilən məqsədə nail olmaq üçün tədqiqat zamanı qarşıya aşağıdakı **vəzifələr** qoyulmuşdur: korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinə dair - dövlət siyasətinin nəzərdən keçirilməsi; elmi-nəzəri baxışların ümumiləşdirilməsi; qanunvericilik bazasının təhlil edilməsi; dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinin tərkib elementlərinin müəyyən edilməsi; onun müasir nəzəri-hüquqi modelinin formalaşdırılmasına aid müddəaların ifadə edilməsi və qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin verilməsi.

**Tədqiqat metodları.** Tədqiqatın **nəzəri-metodoloji əsasını** idrakın ümumi elmi metodları, o cümlədən obyektivlik, ardıcıllıq, elmi-nəzəri və normativ hüquqi mənbələrin təhlili, ümumiləşdirmə, hüquq tətbiqetmə təcrübəsinin təhlili, xüsusi elmi metodlar, müqayisəli-hüquqi metod, hüquqi şərh və s. təşkil edir. Seçilmiş metodların kompleks şəkildə tətbiqi korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinin nəzəri-hüquqi modelinin formalaşdırılması və qanunvericiliyin təkmilləşdirilməsi üzrə müəyyən nəticələrə gəlməyə, ümumiləşdirmələr aparmağa və praktiki tövsiyələr təqdim etməyə imkan vermişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi onunla şərtlənir ki, korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinin nəzəri-hüquqi modeli ilk dəfə olaraq sistemli şəkildə təhlil edilir. Bu amil Azərbaycan hüquq elmi üçün seçilmiş mövzunun **aktuallığını**, onun təhlilinin zəruriliyini, **elmi yeniliyini** və **təcrübi əhəmiyyətini** özündə ehtiva edir.

**Əsas materialın şərhi.** Təəssüflə qeyd etmək lazımdır ki, müasir dövrdə korrupsiya problemi hər bir dövlətdə aşkar formada özünü biruzə verir, korrupsiya, o cümlədən siyasi korrupsiya beynəlxalq səviyyədə böyük təhlükəyə, bütün bəşəriyyət üçün açıq təhdidə çevrilibdir. "Siyasi korrupsiya hökumət siyasətinin, qərarların və qanunların manipulyasiyasını nəzərdə tutur. Bu yolla səlahiyyətli şəxslər atdıqları addımlarla vəzifələrini, statuslarını və ya sərvətlərini ya qoruyur, ya da artırırlar" [34]. Korrupsiya hər bir ölkənin təhlükəsizliyinə təhdid yaradır, cəmiyyətin inkişafına xələl yetirir, əlverişli biznes mühitinin yaranmasına mane olur və hüquqi nihilizmə gətirib çıxarır.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev cənabları tərəfindən uğurla həyata keçirilən konstitusion islahatlar kompleksi inkişafın Azərbaycan modelinin formalaşmasında mühüm yer tutur. Konstitusion islahatlar sistemində elektron hüquq münasibətlərinin tətbiq edilməsi, dövlət hakimiyyəti, dövlət idarəetməsi və dövlət qulluğu sisteminin təkmilləşdirilməsi, dövlətin peşəkar kadrla təminatı, dövlət sektorunda sosial məsuliyyətin daha səmərəli bərqərar edilməsi, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, insan hüquqlarının asan hüquqi metodlarla

və müasir modellərlə təmin edilməsi, əlverişli biznes mühitinin yaradılması və s. əsas hədəflərdən biridir. Bu hədəflər sırasında dövlət hakimiyyəti, dövlət idarəetməsi və dövlət qulluğu sistemində dövlət vəzifəli şəxslərin, o cümlədən dövlət qulluqçularının hüquqi məsuliyyətinin artırılması böyük yer tutur.

Fikrimizcə, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev cənablarının dövlətə, xalqa və bəşəriyyətə xidmət edən ülvi ideyaları, inkişafın Azərbaycan modelinin əsasını təşkil edən kompleks xarakterli islahatları Azərbaycanın dövlətçilik tarixində və ölkədaxili, regional və beynəlxalq ictimai-siyasi mühitdə **"İlham Əliyev islahatları", "Dövlət idarəetməsində İlham Əliyev təcrübəsi"** statusu qazanmış və dövlət başçıları üçün mütərəqqi təcrübə mənbəyinə çevrilmişdir. **"Dövlət idarəetməsində İlham Əliyev təcrübəsi"** özündə müasir Azərbaycanın inkişaf modelinin nümunəvi göstəricilərini, dünya liderləri üçün örnək olan dövlət idarəetmə metodlarını və institusional mexanizmləri ifadə edir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev cənablarının korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən dövlət siyasətinə, o cümlədən dövlət vəzifəli şəxslərin fəaliyyətində şəffaflığın təmin edilməsinə dair dəyərli fikirləri, dövlət başçısı olaraq açıq mövqeyi böyük siyasi, hüquqi, mənəvi və elmi əhəmiyyət kəsb edir.

**Prezident İlham Əliyevin siyasi mövqeyi.** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimindəki nitqində (18 aprel 2018) ifadə etmişdir ki: "Korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə aparılır, bundan sonra da aparılacaqdır. Bu istiqamətdə inzibati tədbirlər, cəza tədbirləri görüləcək və ən böyük səmərə verən sistem xarakterli tədbirlər, institusional islahatlar həyata keçiriləcəkdir. "ASAN xidmət" onların arasında xüsusi yer tutur. Azərbaycan vətəndaşları görürlər ki, biz tədricən bu qurumun funksiyalarını genişləndiririk" [15, s.206].

Prezident İlham Əliyev cənablarının yuxarıda istinad olunan elmi xarakterli, dəyərli fikirləri dövlət başçısının bəşəri bəla olan korrupsiyaya qarşı mübarizə sahəsində mövqeyini açıq ifadə edir, dövlət idarəetməsi və dövlət qulluğu sistemində, dövlət vəzifəli şəxslərin və dövlət qulluqçularının fəaliyyətində korrupsiyaya səbəb ola biləcək halların qarşısının alınmasına, dövlət idarəetməsində səmərəliliyin təmin edilməsinə yönəlmişdir.

**İslahatların qısa xülasəsi.** Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə: "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı", "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı", "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"; "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı (2004-2006-cı illər)", "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya və onun həyata keçirilməsi ilə bağlı 2007-2011-ci illər üçün Fəaliyyət Planı"; "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" və "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir.

"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması və dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2012-ci il tarixli Fərmanı isə vətəndaş məmnunluğunun təmin edilməsi və korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycan modelinin əsasını təşkil etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın "Dövlət qulluğunun inkişaf istiqamətləri" sırasında "Dövlət qulluqçularının etik davranış qaydalarının tətbiqinin təkmilləşdirilməsi (5.10-cu yarımbənd)" aşağıdakı kimi ifadə edilmişdir: "Dövlət qulluqçularının etik davranışı korrupsiyaya qarşı mübarizədə əsas alətlərdən biri olmaqla, dövlət qulluğuna ictimai etimadın və vətəndaş məmnunluğunun artırılmasında mühüm rol oynayır. Dövlət qulluqçuları vəzifə funksiyalarının icrası zamanı bu qaydaları və bu sahədə müəyyən edilmiş dəyərləri rəhbər tutmalı, dövlət orqanlarının rəhbərləri davranışları ilə tabeliyindəki dövlət qulluqçuları-

na nümunə olmalı, etik qaydaların tələblərinə onların əməl etməsini təmin etməlidirlər" [5].

"Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın 2023-2025-ci illərdə icrası üzrə Fəaliyyət Planı" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli Sərəncamı ilə təsdiq edilibdir. Həmin Fəaliyyət Planının 6-cı bəndi "Dövlət qulluğuna dair normativ hüquqi aktların təkmilləşdirilməsi və onların icrasına nəzarət" adlanır. Burada "Dövlət qulluqçularının intizam məsuliyyəti ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi"nə dair məsələ də öz əksini tapmışdır (6.2-ci yarımbənd) [6].

Fikrimizcə, həm Strategiyada, həm də, onun icrası ilə bağlı Fəaliyyət Planında nəzərdə tutulmuş dövlət qulluqçularının etik davranış qaydalarının tətbiqinin və intizam məsuliyyəti ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair məsələ özündə xüsusi növ intizam məsuliyyətinin nəzəri-hüquqi modelinin yaranması üçün əsas hüquqi baza kimi çıxış edir.

**Nəzəri baxışların xülasəsi.** Hüquq nəzəriyyəsində intizam məsuliyyəti hüquqi məsuliyyətin növlərindən biri kimi təqdim edilir və haqlı olaraq "fiziki şəxsin əmək, xidməti, vəzifə öhdəliklərinin icrası ilə bağlı məsuliyyətindən ibarətdir" [50, s.281] kimi ifadə edilir. Elmi tədqiqatlarda dövlət qulluqçularının hüquqi məsuliyyətinin təbiətinə və növlərinə dair differensial yanaşmalar, fərqli baxışlar ifadə edilmiş, əsasən dar intizam spektrinə malik [40, s.38-41] və ya iqtisadi zərər, korrupsiya davranışının xüsusiyyətləri [37], hadisənin genezisi [36, s.59-69] baxımından təhlil olunmuş, dövlət qulluqçularının fəaliyyətində korrupsiya hüquqpozmalarını xarakterizə edən bir sıra ümumi və xüsusi mülahizələr irəli sürülmüşdür [42, s.25-24; 43, s.16, 54; 48, s.86; 22; 23; 24; 27; 28; 29; 45; 38].

Ə.H.Rzayevin fikirincə, "dövlət aparatında neqativ hallar, o cümlədən bürokratizm dövlət qulluqçularının mənəviyyatının aşağı səviyyəsi ilə sintez olunanda dövlət siyasətində və dövlət qulluğunun qanunvericilik bazasında göstərilən hüquqi davranış korrupsiyaya deformasiya olunur" [32, s.401-402]. Ə.H.Rzayev haqlı olaraq dövlət aparatında korrupsiyaya səbəb olan elementlər sisteminə "neqativ hallar, bürokratizm, mənəviyyat, dövlət siyasəti və dövlət qulluğunun qanunvericilik bazası" kimi mühüm əhəmiyyət kəsb edən anlayışları daxil edir. Fikrimizcə, "neqativ hal, bürokratiya, mənəviyyat, dövlət siyasəti və dövlət qulluğu" kimi elementlər bir tərəfdən, dövlət vəzifəli şəxslərin peşəkar dövlət qulluğu fəaliyyətinin və ya peşəkar əmək fəaliyyətinin qiymətləndirilməsinin mühüm aspektlərini müəyyən edir. Digər tərəfdən isə, dövlət orqanlarının daxili intizam qaydalarının strukturunun əsas istiqamətlərini özündə ifadə edir. Bu yanaşma özülüyündə dövlət qulluqçusunun intizam məsuliyyətinin ümumi elementlərindən fərqli olan, xüsusi elementlərini isbat etmiş olur. Hesab edirik ki, dövlət qulluğu sistemində korrupsiya ilə əlaqədar hüquqpozmalarına qarşı preventiv tədbirlərin zəruriliyi məcmu olaraq xüsusi növ intizam məsuliyyətinin mövcudluğunu şərtləndirir.

C.A.Süleymanov yazır: "müasir dövrdə xalq hakimiyyətinə əsaslanan modern və çevik idarəetmənin təmin edilməsi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması üçün "Elektron demokratiyanın" yaradılması əsas amillərdən biridir" [33, s.246]. C.A.Süleymanov haqlı olaraq xalq hakimiyyətinin bərqərar ediməsi üçün "moderin və çevik idarəetməni, dövlət orqanlarında şəffaflığın artırılması və korrupsiyanın aradan qaldırılması"nı "Elektron demokratiya"nın yaradılmasında görür. Fikirmizcə, müasir dövrdə dövlət qulluğu sistemində elektron hüquq münasibətləri daha da geniş vüsət almalı və rəqəmsal hökumətə keçid təmin edilməlidir. Yeni növ ictimai münasibətlərin formalaşması və inkişafı, dövlət qulluğu sistemində elektron hüquq münasibətlərinin daha geniş bərqərar edilməsi özündə dövlət qulluqçularının intizam məsuliyyətinin xüsusi növünün formalaşmasına səbəb olur.

A.R.Qədiməliyevin fikrincə, "müasir konstitusionalizmdə mərkəzsizləşdirmə konseptual olaraq adətən cəmiyyətin daha çox demokratikləşməsinin təzahürü kimi çıxış edir, çünki publik hakimiyyətin mərkəzsizləşdirilməsi idarəetmə strukturlarının nisbi müstəqilliyini nəzərdə tutur, onlara öz səlahiyyətləri daxilində qərarlar qəbul etmək və həyata keçirmək, həmçinin belə qərarlara görə hüquqi və siyasi məsuliyyət daşı-

maq hüququ verir" [20, s.51]. Qeyd etdiyimiz kimi, "siyasi məsuliyyət müxtəlif statuslu və səlahiyyət hədli dövlət vəzifəli şəxslərin xalq, cəmiyyət, dövlət, dövlət hakimiyyəti orqanları qarşısında yaranır və ona edilmiş etibarın itirilməsi nəticəsində özünü büruzə verir. Fikrimizcə, müasir qanunvericilik baxımından demək olar ki, siyasi məsuliyyət dövlətin konstitusiya ilə müəyyən edilmiş siyasi məqsədlərinin və funksiyalarının icraçısı olan dövlət vəzifəli şəxslərin konstitusiyaya zidd hərəkətinin və ya hərəkətsizliyinin nəticəsində yaranır" [27, s.123]. M.B.Dobrobaba və b. hesab edirlər ki, "korrupsiya hüquqpozuntusu törətmiş vətəndaşa münasibətdə dövlət və bələdiyyə qulluğu vəzifəsini tutma hüququndan məhrumetmə kimi təsir tədbirinin tətbiqi avtomatik xarakter daşımamalıdır, yəni bu, sadəcə olaraq, belə bir hüquqpozuntusu törədildikdə və hətta işəgötürənin nümayəndəsi tərəfindən ona etimadın itirilməsi müəyyən edildikdə tətbiq edilməlidir" [38, s.281]. N.Karaqodin və İ.Karaqodina hesab edirlər ki, "korrupsiya nöqteyi-nəzərindən ictimai müsabiqə, attestasiya, ixtisas imtahanı, xüsusən zəif hesab olunan vəzifələrin tutulması üçün kadrların seçimi, hazırlığı və rotasiyası kimi prosedurları dövlət və bələdiyyə qulluğu sistemində korrupsiyanın üzə çıxacağına imkan verir, qulluq fəaliyyətindən şəxsi, yaxud korporativ mənafelərdə istifadə etməyə çalışan şəxslərə maneə yaradır" [41, s.78]. A.X.Qədirovun fikrincə, "neqativ sosial hadisələrdən biri də hakimiyyətin və idarəetmənin müxtəlif səviyyələrində və strukturlarında təzahür edən korrupsiya hallarıdır" [19, s.5]. V.Novruzov yazır: "Azərbaycanda iqtisadi inkişaf modelini səciyyələndirən xüsusiyyətlərdən biri də idarəetmə sistemində və bütövlükdə iqtisadi-sosial həyatda şəffaflıq amilinə xüsusi önəm verilməsidir. Çox səciyyəvidir ki, şəffaflıq və korrupsiyaya qarşı mübarizə Azərbaycan Respublikasının dövlət quruculuğu siyasətində daim diqqət mərkəzində saxlanılan məsələlərdən biri olmuş, bu istiqamətdə bir sıra mühüm normativ hüquqi aktlar qəbul edilmişdir" [31, s.4]. V.Q.Məmmədovun fikrincə, "korrupsiya - dövlət qulluqçularının və onlara bərabər tutulan şəxslərin vəzifələrindən öz şəxsi maraqları naminə, qabaqcadan əlbir olub sui-istifadə və saxtakarlıq edərək qeyri-qanuni qərarlar qəbul etməklə normal prosesləri pozması və başqasına məxsus pul, qiymətli kağız, əmlak xarakterli mənfəət və üstünlüklər əldə etməsi və ya digər maraqlı tərəflərin sərəncamına verməsi və ələ alınmasıdır ki, bunun nəticəsində dövlətin, ictimai təşkilatların, bələdiyyələrin və vətəndaşların qanunla qorunan mənafelərinə ciddi ziyan dəyir" [30, s.37]. A.Y.Pankratov və E.İ.Slepnyeva yazır: "... korrupsiya hüquqpozması qanunverici tərəfindən ayrıca şəkildə müəyyən edilmiş intizam tənbehi nəzərdə tutduğu üçün intizam xətasından obyektivləşdirilir" [49, s.7]. Müəlliflər daha sonra qeyd edirlər ki, "dövlət və bələdiyyə qulluqçularının intizam tənbehi anlayışını özündə əks etdirən qanunvericilik normalarının təhlili belə nəticəyə gəlməyə imkan verir ki, intizam tənbehlərinin tətbiqi xidməti intizamın pozulması ilə bağlıdır" [49, s.10]. Müəlliflərin "xidməti intizamın pozulması"na dair fikirlərini dəstəkləyərək hesab edirik ki, bu mövqe həm ümumi, həm də xüsusi növ intizam məsuliyyətini xarakterizə edir.

L.A.Çernışevanın fikirincə, "korrupsiya hüquqpozmalarının qarşısının alınmasının effektiv üsullarından biri də törədilmiş korrupsiya hüquqpozmalarına görə məsuliyyətin qaçılmazlığını təmin etməkdir. Korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçularının intizam məsuliyyəti bir sıra xüsusiyyətlərə malikdir. Onların arasında aşağıdakıları vurğulamaq olar: 1) hüquqpozmaların məhdud dairəsi; 2) intizam məsuliyyətinin tətbiq dairəsi; 3) dövlət qulluqçularının korrupsiya hüquqpozmalarına görə intizam məsuliyyətinə cəlb edilməsi proseduruna qanunverici tərəfindən tətbiq edilən vahid yanaşma" [54, s.45]. S.A.Savin yazır: "dövlət qulluqçusu tərəfindən korrupsiya hüquqpozmalarının törədilməsinə görə intizam məsuliyyəti institutunun qabaqlayıcı funksiyasını da qeyd etmək lazımdır. Bu mexanizmin köməyi ilə əslində bu növ hüquq pozuntularının qarşısının alınması həyata keçirilir. Korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçularının intizam məsuliyyəti mexanizminin tətbiqi ilə bağlı problemli məsələlər sırasında onu da göstərmək olar ki, qanunvericiliyin özündə korrupsiya hüquqpozması anlayışının özü işlənib hazırlanmamışdır" [51, s.143]. M.B.Dobrobaba və S.Y.Çannov hesab edir ki: "... dövlət qulluqçularının korrupsiya hüquqpozmalarının törədilməsinə

görə məsuliyyətinin hüquqi mahiyyətini onun qulluq hüququnda ümumi intizam məsuliyyətindən (əgər varsa) fərqləndirən xüsusiyyətlərini müəyyən etmək, habelə korrupsiya hüquqpozmalarının törədilməsinə görə intizam icraatının aparılmasının xüsusiyyətlərini, onun differensiallaşdırma səbəblərini izah etmək olar" [39, s.91]. V.İ.Mayorov və R.A.Pestov haqlı olaraq yazırlar ki: "intizam məsuliyyəti hüquqi məsuliyyətin digər növləri arasında mühüm yer tutur, onların arasında əmək və qulluq vəzifələrinin icrası zamanı və yalnız xidmətdə tabeçilik qaydasında baş verməsi kimi xarakterik xüsusiyyəti ilə seçilir. Korrupsiya hüquqpozmalarının törədilməsi intizam tənbehi tədbirlərinin tətbiqinə səbəb olan ən çox yayılmış hüquqpozmalardan biridir. Eyni zamanda, dövlət qulluqçularına münasibətdə bu hüquqpozmalara görə məsuliyyətin tənzimlənməsində hüquqi normaların təkrarlanması müşahidə edilir ki, bu da dövlət qulluqçularının korrupsiya hüquqpozmalarına görə məsuliyyəti ilə intizam məsuliyyətinin nisbəti məsələsində mübahisələrə səbəb olur" [46, s.36]. M.V.Presnyakov və S.Y.Çannov haqlı olaraq qeyd edirlər ki, "dövlət qulluqçularının intizam məsuliyyəti müvafiq normalara tabe olan şəxslər dairəsində, intizam tənbehi tətbiq etmək səlahiyyətinə malik olan şəxslər və orqanlar dairəsində, müəyyən edilmiş qaydada fərqlənən intizam məsuliyyətinin xüsusi növüdür [53, s.381]. E.L.Leşina yazır: "dövlət qulluqçularının intizam tənbehi işləri üzrə icraat şəxsin hüquqları, azadlıqları və qanuni mənafelərinin əhəmiyyətli dərəcədə toxunulduğu ictimai fəaliyyət sahəsidir. Vəzifəli şəxslərin intizam tənbehi işlərinin başlanması, baxılması, iş üzrə icraatının təmin edilməsi üçün tədbirlərin tətbiqi ilə bağlı hər hansı hərəkəti intizam icraatının əsas vəzifələrinin həyata keçirilməsini, onun subyektlərinin və iştirakçılarının hüquq və qanuni mənafelərini, dövlət qulluqçusunun əsassız intizam məsuliyyətindən müdafiəsini təmin etməlidir" [44, s.152]. S.S.Tereşuk haqlı olaraq yazır: "intizam xarakterli korrupsiya hüquqpozmaları ilə intizam xətasının nisbəti müəyyən edilərkən nəzərə alınmalıdır ki, hüquq mühafizə orqanının əməkdaşı iş üzrə icraata başlamazdan əvvəl müəyyən vəzifə və qadağaların tətbiqi məqsədlərini: korrupsiya hüquqpozmalarının qarşısının alınması məqsədilə tətbiq edilib-edilməməsini, çıxarılan nəticələr əsasında "ümumi" əsaslarla və ya korrupsiya hüquqpozması ilə əlaqədar müvafiq intizam icraatına başlamağı müəyyən etməyə borcludur" [52, s.140]. S.A.Savin hesab edir ki, "dövlət qulluqçusu korrupsiya hüquqpozması törətdikdə onun əməllərində təqsirliliyin olub-olmamasının müəyyən edilməsi də çox vacibdir, çünki bu, hər hansı hüquqpozmanın ən mühüm və ayrılmaz əlaməti kimi çıxış edir [51, s.143].

Yuxarıda istinad edilən elmi baxışlar belə qənaətə gəlməyə əsas verir ki, müəlliflər korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçularının intizam məsuliyyətində xüsusi elementlərə bu və ya digər aspektlər üzrə toxunurlar, lakin, onu xüsusi növ intizam məsuliyyəti kimi təqdim və təhlil etmirlər.

**Dövlət qulluğu sistemində korrupsiyaya qarşı mübarizənin hüquqi mexanizmləri.** Azərbaycanda dövlət qulluğunun inkişaf tarixi göstərir ki, keçmiş sovet ittifaqı dövründə dövlət qulluğu institutu lazımi səviyyədə hüquqi institusionallaşmaya məruz qalmamışdır, intizam tənbehi tədbirləri mənəvi-əxlaqi xarakter daşıyan vasitələrlə əvəz edilmişdir. Müstəqil Azərbaycan Respublikasında isə dövlət qulluğu institutu 2000-ci ildə Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanunu [11] ilə bərqərar edilmiş, korrupsiyaya qarşı mübarizə isə 2004-cü ildən Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanununun [16] qəbulu ilə rəsmiləşdirilmişdir. Eyni zamanda dövlət sektorunda korrupsiyaya qarşı mübarizəni, şəffaflığı, daxili intizamı özündə ifadə edən bir sıra etik davranış qaydaları qəbul edilmişdir. Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydalarını və həmin qaydalara əməl olunmasının hüquqi mexanizmini müəyyən edən xüsusi Qanun - Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında Azərbaycan Respublikasının 2017-ci il tarixli Qanunu qəbul edilmişdir [7]. Dövlət qulluqçuları üçün etik davranış qaydalarını və prinsiplərini və onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmləri müəyyən edən ümumi Qanun - Dövlət qulluqçularının etik davranış qaydaları haqqında Azərbaycan Respublikasının 2007-ci il tarixli Qanunu qəbul edilmişdir [13] və s.

Dövlət qulluğu peşəkar əmək fəaliyyətinin xüsusi növüdür [21, s.128-141]. Buna görə də, dövlət qulluqçularının fəaliyyətində əmək hüquqi elementlər, o cümlədən intizam məsuliyyəti xüsusi yer tutur. Dövlət qulluqçularının intizam məsuliyyətinə səbəb olan hallardan biri də korrupsiya ilə əlaqədar hüquqpozmalarıdır. Müasir dövrdə korrupsiya halları bütün dünya üçün bəşəri bəla kimi çıxış edir. Korrupsiya adlı bəşəri bəlanın əsas subyektləri, hərəkatverici qüvvələri sırasında dövlət hakimiyyət səlahiyyətli şəxslər, dövlət vəzifəli şəxslər, dövlət qulluqçuları daha çox diqqəti cəlb edir.

Fikrimizcə, korrupsiyaya qarşı mübarizənin səmərəliliyini şərtləndirən əsas cəhətlərdən biri dövlət qulluğu fəaliyyəti həyata keçirilərkən qanunun aliliyini və intizamı təmin edən müasir hüquqi mexanizmlərin mövcud olmasıdır. Bu cəhət mülkiyyət və təşkilati-hüquqi formasından və işçilərin əmək vəzifələrindən asılı olmayaraq hər bir müəssisənin fəaliyyətində səmərəliliyi və ya məhsuldarlığı bilavasitə şərtləndirir. Qeyd etdiyimiz kimi: "cəmiyyətin dövlət hakimiyyətinə münasibətini özündə ehtiva edən təzahürlərdən biri məhz korrupsiyadır. Korrupsiya hüquqpozmaları isə dövlət hakimiyyət səlahiyyətli və dövlət vəzifəli şəxslərin, ümumi kontekstdə ifadə etsək dövlət qulluqçularının fəaliyyətində özünü daha çox büruzə verir. Bunu həm korrupsiyaya qarşı mübarizəyə dair beynəlxalq hüquq normaları, həm də dövlətlərin milli hüquq normaları və təcrübələri özündə ehtiva edir [22, s.16]. Fikrimizcə, korrupsiyaya qarşı mübarizənin əsas hədəflərindən biri dövlət qulluğu sahəsidir. Korrupsiya hüquqpozmaları dövlət vəzifəli şəxslərin, dövlət qulluqçularının fəaliyyətində özünü daha çox büruzə verir. Dövlət qulluğu sistemində korrupsiyaya qarşı mübarizə tədbirləri və dövlət qulluqçularının fəaliyyətində korrupsiyaya şərait yaradan hallara qarşı mübarizə sistemli və kompleks xarakter daşımalıdır. Dövlət qulluğu sistemində korrupsiya hüquqpozmaları dövlət qulluqçularının hüquqi məsuliyyətinin müxtəlif növlərinin, o cümlədən intizam məsuliyyətinin yaranmasına səbəb olur. Sosial, siyasi və hüquqi əhəmiyyətinə görə dövlət qulluqçularının intizam məsuliyyəti ümumi və xüsusi elementlərə görə fərqlənir. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinə cəlb edilməsi hüquqi və sosial əhəmiyyət kəsb edir.

**Dövlət qulluqçularının intizam məsuliyyətinin ümumi və xüsusi elementləri.**

Müəlliflərin elmi müddəalarını ümumi əsaslarla qəbul edərək dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinin müasir nəzəri-hüquqi modelini formalaşdırmaq olar. Yuxarıda qeyd edilən elmi müddəalarda dövlət qulluqçularının intizam məsuliyyətinin əsasən ümumi, qismən isə xüsusi elementləri ifadə edilir, lakin xüsusi növ intizam məsuliyyəti kimi xarakterizə edilmir.

Ümumi intizam məsuliyyətinin strukturuna aşağıdakı elementlər daxildir:

1) intizam məsuliyyətinin hüquqi və faktiki əsasları (intizam xətasının törədilməsi);

2) intizam məsuliyyətinin şərtləri;

3) intizam məsuliyyətinin predmeti;

4) intizam tənbehinin tətbiqi;

5) intizam icraatı və onun həyata keçirilməsi.

Bu struktur şübhəsiz ki, korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinə də şamil edilir. Bu baxımdan demək olar ki, korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının hüquqi məsuliyyətinin xüsusiyyətləri və onun intizam məsuliyyəti ilə qarşılıqlı əlaqəsi təbii olaraq mövcuddur. İntizam məsuliyyəti dövlət qulluqçusunun hüquqi statusunun əmək hüquqi tərkib elementlərini özündə ifadə edir. Belə ki: "Dövlət qulluqçularının əmək hüquqi statusu bir tərəfdən ümumi statuslu işçi kateqoriyasından fərqlənir, digər tərəfdən isə dövlət qulluğunun növündən, dövlət orqanlarının və dövlət qulluqçularının təsnifatından asılı olaraq dəyişir. ... Dövlət qulluğu vətəndaşın konstitusion əmək hüququnu həyata keçirmək üçün əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə seçdiyi fəaliyyət növüdür. Fikrimizcə, dövlət qulluqçularının konstitusion əmək hüquq subyektliyi dedikdə, qanunla müəyyən edilmiş qaydada dövlət qulluğuna qəbul, müvafiq hüquq və vəzifələri həyata keçirmək, hüquqi məsuliyyət daşımaq qabiliyyəti başa düşülür" [25, s.39]. Qeyd etdiyimiz kimi: "Dövlət qulluğu hüquq münasibətlərinin ictimai və fərdi xarakterinin əsas səciyyəvi cəhətlərindən biri də onun strukturuna daxil olan elementlərin əmək

hüquq münasibətləri ilə əsasən üst-üstə düşməsindən ibarətdir. Dövlət qulluqçularının əmək münasibətləri dövlət qulluğu hüquq münasibətləri sisteminin tərkib hissəsi kimi çıxış edir. Burada əsasən iki aspekt üzrə hüquq münasibətləri daha çox diqqəti cəlb edir. Bu münasibətlərdən biri hakimiyyət-tabeçilik prinsipinə əsaslanan dövlət idarəetməsi üzrə yaranan hüquq münasibətləridir. Digəri isə, əməyin azadlığı prinsipinə əsaslanan konstitusion əmək hüququnun dövlət orqanlarında həyata keçirilməsi və əmək müqaviləsi üzrə yaranan hüquq münasibətləridir" [55, s.16].

Dövlət qulluqçularının hüquqi statusunun tərkib elementlərindən biri onların məsuliyyətidir. Azərbaycan Respublikası Konstitusiyası ilə müəyyən edilir ki: "Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur" (maddə 80); "... Hər kəsin dövlət orqanlarının yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsi hüququ vardır" (maddə 68) [1].

Qeyd etdiyimiz kimi, "dövlət qulluğu haqqında qanunvericilik sistemi dövlət qulluğu hüquq münasibətlərinin vahidliyini və differensiasiyasını şərtləndirir. Bu amil dövlət qulluqçularının hüquqi statusundan və onların əmək münasibətlərinin tənzimlənməsinin xüsusiyyətindən irəli gəlir [26, s.86]". Dövlət qulluqçuları qanunvericiliklə müəyyən edilmiş səviyyədə səlahiyyət həddinə və vəzifə öhdəliklərinə malikdirlər. Dövlət qulluqçusunun səlahiyyətindən sui-istifadə etməsi hüquq pozuntusunun yaranmasına səbəb olur. O.C.Məmmədov və C.S.Vəliyeva dövlət qulluğu hüquq münasibətlərinin xüsusi subyektlərinə münasibətdə qeyd edirlər ki, "korrupsiya hüquqpozmalarının törədilməsinə görə intizam tədbirlərinin tətbiqi çox vaxt problemlidir, çünki onların məsuliyyəti, bir qayda olaraq, siyasi xarakter daşıyır" [45, s.10]. Qeyd etdiyimiz kimi: "Dövlət qulluğu sistemində korrupsiyaya dair hüquqpozmaları əsasən korrupsiyaya şərait yaradan, həmçinin qanuna zidd olaraq nemətlər və üstünlüklərin verilməsi və ya əldə edilməsi yolu ilə həyata keçirilən, nəticə etibarı ilə dövlət qulluqçularının intizam, mülki-hüquqi, inzibati, cinayət və konstitusion hüquqi məsuliyyətinə səbəb olan hərəkət və hərəkətsizliyin məcmusu kimi xarakterizə etmək olar" [24, s.64].

**Korrupsiyaya qarşı mübarizə sahəsində çoxtərəfli sənədlərin xülasəsi:**

Dövlət qulluqçularının fəaliyyətində korrupsiya hüquqpozmalarını xarakterizə edən, korrupsiyanın qarşısının alınması və korrupsiyaya qarşı mübarizə sahəsində çoxtərəfli sənədlər qəbul edilmişdir. Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyası (31 oktyabr 2003) korrupsiyaya qarşı mübarizə sahəsində böyük hüquqi əhəmiyyət kəsb edir. BMT-nin Korrupsiya əleyhinə Konvensiyasında göstərilir ki, "korrupsiya artıq lokal problem deyil, bütün ölkələrin cəmiyyət və iqtisadiyyatına toxunan, buna görə də qarşısının alınması və əleyhinə mübarizə aparılması sahəsində beynəlxalq əməkdaşlığın müstəsna dərəcədə əhəmiyyət kəsb etdiyi transmilli bir təzahür olaraq, dövlət və bələdiyyə qulluğuna, ictimai hakimiyyətin bütün sferasına zərbə vurur. Həmin Konvensiya Azərbaycan Respublikası tətəfindən 30 sentyabr 2005-ci ildə ratifikasiya edilibdir" [10].

Dövlət qulluqçularının fəaliyyətində korrupsiya hüquqpozmalarına dair çoxtərəfli sənədlərdən biri də Avropa Şurasının "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" Konvensiyasıdır (27.01.1999). Bu Konvensiya Azərbaycan Respublikası tərəfindən 30 dekabr 2003-cü ildə təsdiq edilibdir [17]. Avropa Şurasının "Korrupsiya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında" Konvensiyası (04.11.1999) Azərbaycan Respublikası tərəfindən 30 dekabr 2003-cü ildə ratifikasiya edilibdir [18]. MDB dövlətlərinin Parlamentlərarası Assambleyasının "Antikorrupsiya siyasəti haqqında qanunvericliyin əsasları" model Qanunu korrupsiyanın daha geniş tərfini özündə ehtiva edir" [47].

Yuxarıda qeyd edilən çoxtərəfli sənədlər sübut edir ki, dövlət idarəçiliyi və dövlət qulluğu sistemində fəaliyyətin səmərəliliyini artırmaq üçün korrupsiya hüquqpozmalarına qarşı mübarizə mühüm əhəmiyyət kəsb edir. Bu tezis dünyanın bir sıra ölkələrində dövlət idarəçiliyinin inzibati-hüquqi mexanizmlərinin dəyişdirilməsi, dövlət qulluqçularına münasibətdə qada-

ğaların və məhdudiyyətlərin islahatı üçün əsas olmuşdur. ÇXR-in təcrübəsi göstərir ki, rütbəsindən asılı olmayaraq dövlət qulluqçuları üçün ciddi cinayət məsuliyyəti tədbirləri müəyyən edilir və səlahiyyətlər müvafiq olaraq əmtəə sayılmır, satıla bilməz. Eyni zamanda, göstəricilər sistemində kəmiyyət göstəriciləri üçün stimullar nəzərdə tutulmur, məsələn, təyin edilmiş cəzalar (açılan cinayətlər) və s. Fransa Respublikasında dövlət qulluqçuları üçün korrupsiya deliktlərinə görə yalnız cinayət və inzibati məsuliyyət nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının qanunvericiliyinə və elmi təhlilə əsaslanaraq qeyd etmişik ki: “Dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsi, qadağalara və məhdudiyyətlərə əməl edilməməsi onların hüquqi məsuliyyətinin yaranmasına səbəb olur. Fikrimizcə, dövlət qulluqçularının hüquqi məsuliyyətinin növlərini aşağıdakı kimi ifadə etmək olar: 1) dövlət qulluqçularının konstitusion-hüquqi məsuliyyəti; 2) dövlət qulluqçularının inzibati məsuliyyəti; 3) dövlət qulluqçularının intizam məsuliyyəti; 4) dövlət qulluqçularının maddi məsuliyyəti; 5) dövlət qulluqçularının mülki-hüquqi məsuliyyəti; 6) dövlət qulluqçularının cinayət məsuliyyəti; 7) dövlət qulluqçularının peşəkar məsuliyyəti” [28, s.200].

**Korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətini şərtləndirən hüquqi normalar və qanunvericiliyin təkmilləşdirilməsi.**

Azərbaycanda korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinə cəlb edilməsinin hüquqi əsasları Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmişdir [16]. Həmin Qanun dövlət qulluqçularının intizam məsuliyyəti institutunun ümumi və xüsusi növə ayrılmasına səbəb olmuşdur. Dövlət qulluqçularının intizam məsuliyyəti institutuna ümumi normalarla yanaşı, korrupsiya hüquqpozmalarına görə intizam məsuliyyətini tənzimləyən xüsusi normalar daxil edilmişdir. Bunun hüquqi mahiyyəti və intizam məsuliyyəti ilə əlaqəsi nə elmdə, nə də hüquq tətbiqi təcrübəsində hələ də özünü tam ifadə etməmişdir.

Korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinə dair tədbirlərin səmərəli tətbiqinin hüquqi tənzimlənməsi ardıcıllıq, hüquqi terminologiyanın vəhdəti, hüquq tətbiqi üçün aydın və bir sıra əsas tələblərə cavab verməlidir. Fikrimizcə, bu amillərin birliyi dövlət qulluqçularının intizam məsuliyyəti institutunun keyfiyyətini təmin etmiş olar.

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli Qanunu [12] ilə həmin Qanunun 1-ci maddəsi yeni redaksiyada verilmiş, Qanunda istifadə olunan əsas anlayışların mənaları yeni məzmunda təsbit edilmişdir. Qanunvericinin bu yanaşması, Qanunda dövlət qulluğuna dair leqal anlayışların ifadə edilməsi təqdirəlayiq hesab edilir. Dövlət qulluğu haqqında Qanunun 1.1.26-cı maddəsinə əsasən: “intizam məsuliyyəti – dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsinə (intizam xətasına), habelə bu Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmamasına görə bu Qanunda nəzərdə tutulmuş intizam tənbehinin tətbiqini nəzərdə tutan hüquqi məsuliyyət növü” kimi xarakterizə edilir. İntizam məsuliyyətinə verilmiş anlayışın məzmunundan onun xüsusiləşdirilmiş xarakteri aydın görünür. Başqa sözlə, dövlət qulluğu sistemində intizam məsuliyyətinə verilmiş anlayış üç tərkib hissədən ibarətdir:

1) dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsinə (intizam xətasına) görə;

2) dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin lazımi şəkildə yerinə yetirilməməsinə (intizam xətasına) görə;

3) Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmamasına görə.

Fikrimizcə, burada təsbit edilmiş tərkib elementlər dövlət qulluqçusunun ümumi növ intizam məsuliyyətini ifadə edir. Bununla yanaşı, Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmamasına görə Qanunda nəzərdə tutulmuş intizam tənbehinin tətbiqini nəzərdə tutan hüquqi məsuliyyətə dair norma isə intizam məsuliyyətini xüsusiləşdirir, yəni, məhdudiyyətlərə əməl edilmədikdə dövlət qulluqçusunun

məxsusi intizam məsuliyyətinin yaranmasını özündə ifadə edir.

Qeyd etmək lazımdır ki, intizam məsuliyyətinə verilmiş anlayışın məzmunu dövlət qulluqçusunun fəaliyyətinin əmək hüquqi xarakterini bir daha qanunvericilik vasitəsilə leqal olaraq təsdiq edir. Digər müsbət cəhət isə ondan ibarətdir ki, intizam məsuliyyəti dövlət qulluğu sistemi üçün xüsusiləşdirilmişdir, lakin tam ifadə edilməmişdir. Digər tərəfdən isə, Dövlət qulluğu haqqında Qanunun 25-ci maddəsində nəzərdə tutulmuş intizam məsuliyyətinin tərkib elementləri ilə uyğunsuzluq müşahidə edilir. Belə ki, korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun intizam məsuliyyətinə dair məsələ həmin anlayışda təsbit edilmir. Bu hal tərəfimizdən qanunvericilikdəki uyğunsuzluq kimi qiymətləndirilir. Buna görə də, hesab edirik ki, həmin maddənin aşağıdakı məzmunda yeni redaksiyada verilməsi məqsədəmüvafiq olardı:

"1.1.26. dövlət qulluğu sistemində intizam məsuliyyəti – dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsinə (intizam xətasına), habelə bu Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmamasına görə bu Qanunda nəzərdə tutulmuş intizam tənbehinin tətbiqini nəzərdə tutan ümumi xarakterli hüquqi məsuliyyət növü (ümumi növ intizam məsuliyyəti); korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) xüsusi xarakterli hüquqi məsuliyyət növü (xüsusi növ intizam məsuliyyəti);".

Dövlət qulluqçularının intizam məsuliyyətinin tənzimlənməsinin hüquqi əsasları Dövlət qulluğu haqqında Qanunun "Dövlət qulluqçusunun məsuliyyəti" adlanan 25-ci maddəsində təsbit edilibdir. Həmin maddə ilə müəyyən edilir ki: "Dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsi, habelə bu Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmaması, qanunda başqa qayda nəzərdə tutulmayıbsa, intizam məsuliyyətinə səbəb olur (maddə 25.1) [11]. Fikrimizcə, bu maddə də natamamdır, həmin Qanunun korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə intizam məsuliyyətini nəzərdə tutan 25.2 və 25.11-ci maddələri ilə uzlaşmır. Qanunda mövcud olan uyğunsuzluğu aradan qaldırmaq üçün

Dövlət qulluğu haqqında Qanunun 25.1-ci maddəsini aşağıdakı məzmunda yeni redaksiyada verilməsi məqsədəuyğun heab edilir:

"25.1. Dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsi, habelə bu Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmaması (ümumi növ), korrupsiya ilə əlaqədar hüquqpozmaları törətdikdə (xüsusi növ) qanunda başqa qayda nəzərdə tutulmayıbsa, intizam məsuliyyətinə səbəb olur.".

Dövlət qulluğu haqqında Qanunun 25.2-ci maddəsinə əsasən dövlət qulluqçusu həmin Qanunun 18-ci, 20-ci və ya 25.11-ci maddələrində nəzərdə tutulmuş tələbləri pozduqda, onun barəsində intizam tənbeh tədbirlərindən biri tətbiq edilə bilər. Qanunla dövlət qulluqçusunun intizam məsuliyyətinin yaranmasına səbəb olan üç ümumi, iki xüsusi istiqamət müəyyən edilir. Həmin istiqamətləri aşağıdakı kimi ifadə etmək olar:

**dövlət qulluqçusunun ümumi növ intizam məsuliyyətinin səbəbləri:**

- dövlət qulluqçusu tərəfindən qanunla müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi onun ümumi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur;
- dövlət qulluqçusu tərəfindən qanunla müəyyən edilmiş vəzifələrin lazımi şəkildə yerinə yetirilməməsi onun ümumi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur;
- dövlət qulluqçusu tərəfindən qanunla dövlət qulluğu ilə əlaqədar müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmaması onun ümumi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur.

**dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyətinin səbəbləri:**

- dövlət qulluqçusu Korrupsiyaya qarşı mübarizə haqqında Qanunla müəyyən edilmiş maliyyə xarakterli tələblərə əməl etmədikdə bu hal onun xüsusi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur;
- dövlət qulluqçusu Korrupsiyaya qarşı mübarizə haqqında Qanunla müəyyən edilmiş korrupsiya ilə əlaqədar hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti

yaratmadıqda) bu hal onun xüsusi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur.

Dövlət qulluqçusunun ümumi növ intizam məsuliyyətinin yaranmasına səbəb olan hüquqi normalar Dövlət qulluğu haqqında Qanunun "Dövlət qulluqçusunun əsas vəzifələri" adlanan 18-ci maddəsində təsbit edilibdir. Dövlət qulluqçusu tərəfindən həmin maddə ilə müəyyən edilmiş əsas vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsi onun ümumi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur.

Dövlət qulluqçusunun ümumi növ intizam məsuliyyətinin yaranmasına səbəb olan digər hüquqi normalar isə Dövlət qulluğu haqqında Qanunun "Dövlət qulluğu ilə əlaqədar məhdudiyyətlər" adlanan 20-ci maddəsində təsbit edilibdir [11]. Belə ki, dövlət qulluqçusu tərəfindən həmin maddə ilə dövlət qulluğu ilə əlaqədar müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmaması onun ümumi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur.

Dövlət qulluqçusunun intizam məsuliyyətinin xüsusi növünü özündə ifadə edən normalar Dövlət qulluğu haqqında Qanunun 25.11-ci maddəsində aşağıdakı kimi təsbit edilibdir: "Dövlət qulluqçusu "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) intizam məsuliyyətinə cəlb olunur". Bu normalar belə qənaətə gəlməyə əsas verir ki, korrupsiya ilə əlaqədar hüquqpozmaları törətmiş dövlət qulluqçusu ümumidən fərqli tərkib elementlərinə malik xüsusi növ intizam məsuliyyətinə cəlb olunur. Burada diqqəti cəlb edən məqamlardan biri də ondan ibarətdir ki, həmin norma ilə məsuliyyətə cəlb olunma imperativ xarakter daşıyır. Başqa sözlə, dövlət qulluqçusu korrupsiya ilə əlaqədar hüquqpozmaları törətdikdə, onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadığı halda intizam məsuliyyətinə cəlb olunmalıdır. Eyni zamanda Dövlət qulluğu haqqında Qanunun 25.2-ci maddəsi ilə müəyyən edilir ki, "Dövlət qulluqçusu bu Qanunun 18-ci, 20-ci və ya 25.11-ci maddələrində nəzərdə tutulmuş tələbləri pozduqda, onun barəsində aşağıdakı intizam tənbeh tədbirlərindən biri tətbiq edilə bilər". Bu normanın tətbiqi isə imperativ xarakter daşımır. Başqa sözlə, dövlət qulluqçusu korrupsiya ilə əlaqədar hüquqpozmaları törətdikdə onun barəsində intizam tənbeh tədbirlərindən biri tətbiq edilə bilər.

Aparılmış elmi təhlilin nəticəsi olaraq Dövlət qulluğu haqqında Azərbaycan Respublikası Qanunun 25.11-ci maddəsinin ləğv edilməsi və aşağıdakı məzmunda 25-1-ci maddənin əlavə edilməsi məqsədəmüvafiq hesab edilir:

**"Maddə 25-1. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti**

25-1.1. Dövlət qulluqçusu "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) 6-cı və 9-1-ci maddələrinə müvafiq olaraq xüsusi növ intizam məsuliyyətinə cəlb olunur.

25-1.2. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularına intizam tənbehi bu Qanunun 25.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar aşkar edildiyi gündən üç ay keçənədək verilə bilər.

25-1.3. Dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyətinə dair digər məsələlər qanunvericiliyə uyğun olaraq tənzimlənir.".

Hesab edikrik ki, dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti korrupsiya ilə əlaqədar hüquqpozmaları ilə şərtlənir və heç bir şübhə doğurmur. Korrupsiyaya qarşı mübarizə haqqında Qanunun "Maliyyə xarakterli tələblər" adlanan 5-ci maddəsi ilə müəyyən edilmiş maliyyə xarakterli tələblərə əməl etmədikdə bu hal dövlət qulluqçusunun intizam məsuliyyətinin yaranmasına səbəb olur. Vəzifəli şəxslər, o cümlədən dövlət qulluqçuları qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə xarakterli məlumatları təqdim etmədikdə intizam məsuliyyətinə cəlb olunur və onun barəsində intizam tənbeh tədbirlərindən biri tətbiq edilə bilər [16].

Korrupsiyaya qarşı mübarizə haqqında Qanunun 6-cı maddəsində "Maliyyə xarakterli tələblərin pozulmasına görə məsuliyyət"i müəyyən edən normalar aşağıdakı kimi təsbit edilibdir: "Vəzifəli şəxslər və ya vəzifə tutmaq istəyən şəxslər bu Qanunun 5.1-ci maddəsində nə-

zərdə tutulmuş tələblər və bu tələblərə əməl olunmamasının hüquqi nəticələri barədə qanunvericiliklə müəyyən edilmiş qaydada xəbərdar edilirlər (maddə 6.1). Bu Qanunun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl olunmasına nəzarətin həyata keçirilməsi qaydaları qanunvericiliklə müəyyən edilir (maddə 6.2). Vəzifəli şəxslər tərəfindən bu Qanunun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl olunmaması, yəni bu maddədə nəzərdə tutulmuş məlumatların üzürsüz səbəbdən vaxtında təqdim edilməməsi və ya qəsdən natamam, yaxud təhrif edilmiş məlumatların təqdim olunması həmin şəxslərin intizam məsuliyyətinə cəlb olunmasına səbəb ola bilər. Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə barələrində intizam məsuliyyətinə cəlb olunmanın xüsusi qaydası nəzərdə tutulmuş şəxslər intizam məsuliyyətinə həmin qaydalara riayət edilməklə cəlb oluna bilərlər (maddə 6.3). Komissiya bu Qanunun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etməyən şəxslər barəsində rəsmi dövlət qəzetində məlumat dərc etdirə bilər (maddə 6.4)" [16]. Maddənin əmək hüquqi xarakterini nəzərə alan qanunverici haqlı olaraq maliyyə xarakterli tələblərin pozulmasına görə məsuliyyətə cəlb olunma halında intizam məsuliyyətini nəzərdə tutur. Bu hal belə qənaətə gəlməyə əsas verir ki, həmin maddənin adının məzmununa uyğunlaşdırılmasına və yeni redaksiyada verilməsinə ehtiyac vardır. Həmin uyğunsuzluğu aradan qaldırmaq üçün Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanunun 6-cı maddəsinin adının aşağıdakı redaksiyada verilməsi məqsədəmüvafiq olardı: **"Maddə 6. Maliyyə xarakterli tələblərin pozulmasına görə xüsusi növ intizam məsuliyyəti."**.

"Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları" Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli Qanunu [35] ilə təsdiq edilibdir. Bu Qaydalar "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində nəzərdə tutulmuş maliyyə xarakterli məlumatların təqdim edilmə formasını, maliyyə xarakterli məlumatları təqdim edən vəzifəli şəxsləri, bu məlumatları qəbul edən orqanları və həmin məlumatların yoxlanılması qaydalarını müəyyən edir (maddə 1) [35]. Həmin Qaydaların 2-ci maddəsi ilə "Maliyyə xarakterli məlumatları təqdim edən vəzifəli şəxslər"in dairəsi müəyyən edilmişdir.

Qaydaların pozulması Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq cinayət, inzibati və ya intizam məsuliyyətinə səbəb olur (maddə 10).

Korrupsiyaya qarşı mübarizə haqqında Qanunun 9.1-ci maddəsinə əsasən korrupsiya ilə əlaqədar hüquqpozmalar bilavasitə korrupsiya hüquqpozmalarından və korrupsiyaya şərait yaradan hüquqpozmalardan ibarətdir. Demək, həmin Qanunun 9-cu maddəsi ilə müəyyən edilmiş korrupsiya ilə əlaqədar hüquqpozmaları dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur. Bu müddəalar belə qənaətə gəlməyə əsas verir ki, korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyəti iki istiqamət üzrə təzahür edir:

1) bilavasitə korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti;

2) korrupsiyaya şərait yaradan hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti.

Korrupsiyaya qarşı mübarizə haqqında Qanunun 9-cu maddəsində sadalanan korrupsiya ilə əlaqədar hüquqpozmalar vəzifəli şəxs olaraq dövlət qulluqçularına münasibətə birbaşa tətbiq edilir. Bununla bağlı normalar yuxarıda qeyd edildiyi kimi Dövlət qulluğu haqqında Qanunun 25.11-ci maddəsində təsbit edilibdir.

Korrupsiyaya qarşı mübarizə haqqında Qanunun 10-cu maddəsi ilə korrupsiya ilə əlaqədar hüquqpozmalara görə vəzifəli şəxslərin məsuliyyətinin növləri müəyyən edilmişdir. Həmin maddəyə əsasən korrupsiya ilə əlaqədar hüquqpozmalar qanunvericiliklə müəyyən edilmiş qaydada intizam, mülki-hüquqi, inzibati və ya cinayət məsuliyyətinə səbəb olur. Vəzifəli şəxs (dövlət qulluqçusu) tərəfindən Korrupsiyaya qarşı mübarizə haqqında Qanunun 9-cu maddəsində nəzərdə tutulmuş hüquqpozmaların törədilməsi mülki-hüquqi, inzibati və ya cinayət məsuliyyəti yaratdıqda, vəzifəli şəxsin (dövlət qulluçusunun) məsuliyyətə cəlb edilməsi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun həyata keçirilir. Korrupsiya ilə əlaqədar hüquqpozmalara görə intizam məsuliyyə-

ti tədbirləri isə Korrupsiyaya qarşı mübarizə haqqında Qanunla və digər qanunvericilik aktları ilə tənzimlənir.

Korrupsiya ilə əlaqədar hüquqpozmaların törədilməsi inzibati və ya cinayət məsuliyyəti yaratmadığı halda dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsinə dair məsələ Korrupsiyaya qarşı mübarizə haqqında Qanunun 10.4-cü maddəsi ilə tənzimlənir. Həmin maddədə deyilir ki, "Bu Qanunun 9-cu maddəsində nəzərdə tutulmuş hüquqpozmaların törədilməsi inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda, aşağıdakı xüsusi hallara riayət edilməklə qanunvericiliklə müəyyən edilmiş qaydada intizam məsuliyyətinə səbəb olur". Burada mövzunun obyekti və predmeti baxımından diqqəti cəlb edən məqam "xüsusi hallara" dair normanın mövcudluğudur. Fikimizcə, "xüsusi hallara riayət etməklə" müddəaları dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyətinə cəlb edilməsini özündə ifadə edir. Aparılmış elmi təhlilin nəticəsi olaraq, Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanununa aşağıdakı məzmunda 9-1-ci maddənin əlavə edilməsi məqsədəmüvafiq hesab edilir:

**"Maddə 9-1. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti**

9-1.1. Dövlət qulluqçusu bu Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) 6-cı maddəsinə müvafiq olaraq xüsusi növ intizam məsuliyyətinə cəlb olunur.

9-1.2. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti ilə əlaqədar digər məsələlər Azərbaycan Respublikasının dövlət qulluğu haqqında qanunvericiliyi və əmək qanunvericiliyi ilə tənzimlənir.".

Dövlət qulluğu haqqında Qanunun 25.2-ci maddəsinə əsasən dövlət qulluqçusu həmin Qanunun 18-ci, 20-ci və ya 25.11-ci maddələrində nəzərdə tutulmuş tələbləri pozduqda, onun barəsində aşağıdakı intizam tənbeh tədbirlərindən biri tətbiq edilə bilər:

- töhmət (maddə 25.2.1);
- bir il müddətinədək vəzifə maaşının 5 faizin-dən 30 faizinədək azaldılması (maddə 25.2.2);
- həmin təsnifatdan olan, lakin vəzifə maaşı aşağı olan vəzifəyə keçirilməsi (maddə 25.2.3);
- daha aşağı təsnifatdan olan vəzifəyə keçirilməsi (maddə 25.2.4);
- ixtisas dərəcəsinin bir pillə aşağı salınması (maddə 25.2.5);
- dövlət qulluğundan azad edilməsi (maddə 25.2.6) [11].

Dövlət qulluğu haqqında Qanunun 25.7-ci maddəsinə əsasən həmin Qanunun 25.2.1-25.2.6-cı maddələrində nəzərdə tutulmuş intizam tənbeh tədbirləri dövlət qulluqçusunun qulluq keçdiyi dövlət orqanının rəhbəri tərəfindən, 25.2.1-ci maddəsində nəzərdə tutulmuş intizam tənbeh tədbiri - töhmət isə, habelə dövlət qulluqçusunun qulluq keçdiyi dövlət orqanının rəhbəri tərəfindən səlahiyyət verilmiş vəzifəli şəxs (şəxslər) tərəfindən tətbiq oluna bilər.

Dövlət qulluğu haqqında Qanunun 25.3-cü maddəsi ilə müəyyən edilir ki, bu Qanunun 25.2-ci maddəsinə uyğun olaraq intizam tənbehinin tətbiqinə əsaslar olduqda aşağıdakı hərəkətlər həyata keçirilir:

1) müvafiq dövlət orqanı rəhbərinin əmri ilə araşdırma aparılır;

2) dövlət qulluqçusundan yazılı izahat alınır;

3) zərurət olduqda, müvafiq dövlət orqanının rəhbəri xidməti yoxlama təyin edir;

4) dövlət qulluqçusunun yazılı izahat verməkdən imtina etməsi rəsmiləşdirilir;

5) dövlət qulluqçusunun imtinası intizam tənbehinin tətbiqinə mane olmur;

6) dövlət qulluqçularına intizam tənbehi Qanununda nəzərdə tutulmuş əsaslar aşkar edildiyi gündən bir ay keçənədək verilə bilər;

7) dövlət qulluqçusunun məzuniyyətdə, ezamiyyətdə olduğu, əmək qabiliyyətini müvəqqəti itirdiyi, habelə barəsində xidməti yoxlama və ya cinayət işinin istintaqı aparıldığı vaxt həmin müddətə daxil edilmir.

Dövlət qulluğu haqqında Qanunun 25.6-cı maddəsinə əsasən dövlət qulluqçusu barəsində "dövlət qulluğundan azad edilməsi" intizam tənbeh tədbirləri aşağıdakı əsaslar olduqda tətbiq edilə bilər:

1) dövlət qulluqçusu vəzifələrin icrası zamanı kobud pozuntulara yol verdikdə;

2) dövlət qulluqçusu vəzifələrin icrası zamanı mütəmadi olaraq pozuntulara yol verdikdə;

3) Qanunla nəzərdə tutulmuş məhdudiyyətlərə əməl edilmədikdə.

Göründüyü kimi, Dövlət qulluğu haqqında Qanunun 25.6-cı maddəsində korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti diqqətdən kənar qalmışdır. Fikrimizcə, bu hal qanunvericilikdəki boşluqlardan biridir. Bu boşluğu aradan qaldırmaq və dövlət qulluqçusunun intizam məsuliyyətini daha da gücləndirmək məqsədilə həmin maddənin aşağıdakı redaksiyada verilməsi məqsədəmüvafiq hesab edilir:

"25.6. Bu Qanunun 25.2.6-cı maddəsində nəzərdə tutulmuş intizam tənbeh tədbiri vəzifələrin icrası zamanı kobud və ya mütəmadi olaraq pozuntulara yol verildikdə və ya bu Qanunun 20-ci maddəsində nəzərdə tutulmuş məhdudiyyətlərə əməl edilmədikdə və ya "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə tətbiq oluna bilər.".

Dövlət qulluğu haqqında Qanunun 25-ci maddəsində dövlət qulluqçusunun məsuliyyəti ilə bağlı digər məsələlər də nəzərdə tutulmuşdur. Belə ki, dövlət qulluqçusu barəsində xidməti yoxlama aparıla bilər. Xidməti yoxlamanın aparılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir (maddə 25.4). Burada nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir. İntizam tənbeh tədbirinin tətbiq edilməsi barədə əmrdən, onun imzalandığı gündən 7 iş günü müddətində müvafiq icra hakimiyyəti orqanına şikayət vermək olar. Burda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini tabelik qaydasında yuxarı dövlət orqanı həyata keçirir. Bu zaman həmin orqan tərəfindən intizam tənbeh tədbiri 10 iş günü müddətində ləğv olunmalı və ya qüvvədə saxlanılmalıdır. Tətbiq olunmuş intizam tənbeh tədbirindən şikayət verilməsi qaydası Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir (maddə 25.8) [11].

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli Fərmanı ilə "Dövlət orqanlarında dövlət qulluqçuları barəsində tətbiq olunmuş intizam tənbehi tədbirlərindən şikayət verilməsi qaydası haqqında Əsasnamə" təsdiq edilibdir [14]. Bu Əsasnamə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa və digər normativ hüquqi aktlara uyğun olaraq hazırlanmış və dövlət orqanlarında dövlət qulluqçuları barəsində tətbiq olunmuş intizam tənbehi tədbirlərindən şikayət verilməsi ilə əlaqədar yaranmış məsələləri tənzimləyir. Hər bir dövlət qulluqçusunun ona həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsinə və yaxud lazımi şəkildə yerinə yetirilməməsinə, həmçinin "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu və digər normativ hüquqi aktlarla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmamasına görə barəsində tətbiq olunmuş intizam tənbeh tədbirindən şikayət vermək hüququ vardır. Əsanamənin 3-cü bəndində nəzərdə tutulur ki, "Tətbiq olunmuş intizam tənbeh tədbirinin ləğv edilməsi üçün dövlət qulluqçusu 7 gün ərzində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu məsələləri üzrə Komissiyaya (bundan sonra - Komissiya) şikayət verə bilər. Dövlət qulluqçusunun xəstə olduğu, yaxud məzuniyyətdə, ezamiyyətdə olduğu vaxt həmin müddətə daxil edilmir".

"Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli Fərmanı [8] ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu məsələləri üzrə Komissiya ləğv edilmişdir. Hesab edirik ki, sözü gedən Əsasnamənin 3-cü bəndində nəzərdə tutlmuş "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu məsələləri üzrə Komissiyaya (bundan sonra - Komissiya)" sözləri "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə" (bundan sonra – Dövlət Əmək Müfəttişliyi Xidmətinə)" sözləri ilə, o cümlədən Əsanamənin müvafiq hissələrində "Komissiya" sözü ismin müvafiq hallarında "Dövlət Əmək Müfəttişliyi Xidməti" sözləri ilə əvəz edilməldir.

Dövlət qulluğu haqqında Qanuna əsasən dövlət qulluqçusu qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada inzibati və cinayət məsuliyyətinə cəlb oluna bilər (maddə 25.9) [11]. Təəssüflə qeyd etmək lazımdır ki, korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının inzibati məsuliyyətini müəyyən edən hallar qanunvericiliklə birbaşa müəyyən edilməmişdir. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində demək olar ki, korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə inzibati məsuliyyət anlayşından istifadə edilmir. Yalnız İnzibati Xətalar Məcəlləsin 594-2-ci maddəsində "Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsin dövlət müdafiəsi ilə bağlı qanunvericiliyin tələblərinin pozulması"na dair normalar vardır [3].

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin otuz üçüncü fəsli "Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər" adlanır [2]. Bu fəsildə korrupsiya hüquqpozmalarının cinayət hüquqi əlamətləri xarakterizə olunur və subyekt tərkibi müəyyən edilir. Dövlət qulluğu sistemində korrupsiyaya qarşı mübarizə sahəsində vəzifəli şəxslərin subyekt tərkibinin müəyyən edilməsi baxımından "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308-ci maddəsinin "Qeyd" hissəsində nəzərdə tutulmuş "vəzifəli şəxs" anlayışının şərh olunmasına dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 2013-cü il 19 iyul tarixli Qərarıda mühüm əhəmiyyət kəsb edir [4].

Dövlət qulluğu haqqında Qanuna əsasən dövlət qulluqçusu onun təqsiri üzündən dəymiş zərər üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maddi məsuliyyət daşıyır. Dövlət qulluqçusunun qanuna uyğun hərəkətləri nəticəsində dəymiş zərərin əvəzi tam həcmdə Azərbaycan Respublikasının dövlət büdcəsinin və Naxçıvan Muxtar Respublikasının büdcəsinin vəsaiti hesabına ödənilir (maddə 25.10) [11]. Azərbaycan Respublikasının Konstitusiyasının "Özbaşınalıqdan müdafiə və vicdanlı davranış hüququ" adlanan 68-cı maddəsinin 4-cü hissəsində dövlətin dövlət qulluqçuları ilə birlikdə mülki məsuliyyətinə dair normalar təsbit edilibdir. Orada deyilir: "Hər kəsin dövlət orqanlarının ona münasibətdə özbaşınalığı istisna edən vicdanlı davranışına hüququ vardır. ... Dövlət, dövlət qulluqçuları ilə birlikdə, dövlət qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyır" [1].

Dövlət qulluğu haqqında Qanunun 25-ci maddəsinin elmi təhlili belə qənaətə gəlməyə əsas verir ki, dövlət qulluqçularının intizam məsuliyyətinə cəlb edilməsini iki növ üzrə xarakterizə etmək olar:

1) intizam xətasına görə dövlət qulluqçusunun ümumi növ intizam məsuliyyəti;

2) korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti.

Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının intizam məsuliyyətini tənzimləyən normativ müddəalar göstərir ki, korrupsiyaya qarşı mübarizənin səmərəliliyini artırmaq məqsədilə dövlət qulluqçuları üçün bir sıra məhdudiyyətlər və qadağalar müəyyən edilmişdir. Çünki, korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə məsuliyyətin əsas subyektlərindən biri məhz korrupsiyaya qarşı mübarizəyə dair vəzifələr həvalə edilmiş dar aspektdə dövlət qulluqçularıdır, daha geniş aspektdə isə dövlət vəzifəli şəxslərdir.

Fikrimizcə, korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusu barəsində intizam tənbeh tədbirlərindən birinin seçimi zamanı ilk növbədə hüquqpozuntusunun ağırlıq dərəcəsi müəyyən edilməlidir. Belə ki, korrupsiya ilə əlaqədar hüquqpozmalarının törədilməsinə görə dövlət qulluğundan azad edilmə kimi intizam tənbehi kifayət qədər konkret əməllərə görə təyin edilir. Belə olan halda, digər intizam tənbeh tədbirlərinin seçimi ilə bağlı məsələ daha mürəkkəb xarakerə malik olur. M.B.Dobrobaba və S.Y.Çannov haqlı olaraq yazırlar ki: "məhdudiyyətlərə və qadağalara, maraqların toqquşmasının qarşısının alınması və ya həllinə dair tələblərə əməl edilməməsi və korrupsiyaya qarşı mübarizə məqsədilə müəyyən edilmiş öhdəliklərin yerinə yetirilməməsi" son dərəcə qeyri-müəyyəndir, çünki dövlət qulluqçularının korrupsiyaya qarşı olan qadağaları və vəzifələri ilə "ümumi" məhdudiyyətləri bir-birindən ayırmaq çox vaxt çətin olur [39, s.91]. Eyni zamanda nəzərə almaq lazımdır ki, dövlət qulluqçularına intizam tənbehi korrupsiya ilə əlaqədar hü-

quqpozmalarına görə hüquqi əsaslar aşkar edildiyi gündən bir ay keçənədək verilə bilər. Dövlət qulluqçusunun məzuniyyətdə, ezamiyyətdə olduğu, əmək qabiliyyətini müvəqqəti itirdiyi, habelə barəsində xidməti yoxlama və ya cinayət işinin istintaqı aparıldığı vaxt həmin müddətə daxil edilmir. Fikrimizcə, dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyətinin yaranma əsaslarının ciddiliyini nəzərə alaraq yuxarıda təklif etdiyimiz kimi, dövlət qulluqçularına intizam tənbehi korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə hüquqi əsaslar aşkar edildiyi gündən üç ay keçənədək verilməsi məqsədəmüvafiq olardı.

Yuxarıda istinad edilən müəddəalar belə qənaətə gəlməyə əsas verir ki, qanunvericiliklə korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə məsuliyyətin növünü müəyyən edən konkret meyarlar yoxdur. Bu hal, korrupsiya ilə əlaqədar hüquqpozmaları ciddilik dərəcəsinə görə, universal olmasalar da, təcrübədə fərqli yanaşmaların formalaşmasına səbəb olur.

Fikrimizcə, intizam məsuliyyəti ilə korrupsiya ilə əlaqədar hüquqpozmalara görə vəzifəli şəxslərin məsuliyyətinin oxşarlığını inkar etmək çətindir. Belə ki, Korrupsiyaya qarşı mübarizə haqqında Qanunun 10.1-ci maddəsi ilə müəyyən edilir ki, korrupsiya ilə əlaqədar hüquqpozmalar qanunvericiliklə müəyyən edilmiş qaydada intizam, mülki-hüquqi, inzibati və ya cinayət məsuliyyətinə səbəb olur, 10.4-cü maddəsində isə təsbit edilir ki, həmin Qanunun 9-cu maddəsində nəzərdə tutulmuş hüquqpozmaların törədilməsi inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda, aşağıdakı xüsusi hallara riayət edilməklə qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qulluqçusunun intizam məsuliyyətinə səbəb olur. Xüsusi hallar dedikdə isə, "dövlət orqanlarına seçilmiş şəxslər"ə, "yerli özünüidarəetmə orqanlarına seçilmiş şəxslər"ə, "dövlət orqanlarında seçkili vəzifələrə namizədliyi qanunla müəyyən olunmuş qaydada qeydə alınmış şəxslər"ə və "hakimlər"ə münasibətdə korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə intizam məsuliyyətinə səbəb olan hallar nəzərdə tutulur.

Korrupsiyaya qarşı mübarizə haqqında Qanunun 10.1-ci maddəsi ilə müvafiq subyektlərin korrupsiya ilə əlaqədar hüquqpozmalara görə "intizam, mülki-hüquqi, inzibati və ya cinayət məsuliyyəti daşıdığı" müəyyən edilir. Fikrimizcə, dövlət qulluqçularının korrupsiya ilə əlaqədar hüquqpozmalara görə məsuliyyətinin tənbehlərin xarakterinə və digər xüsusiyyətlərinə əsaslanaraq sonrakı üç növə aid edilməsi məqsədəmüvafiq hesab edilmir. Bu isə o deməkdir ki, korrupsiya ilə əlaqədar hüquqpozmaları törətmiş dövlət qulluqçusunun əməli xüsusi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur. Buna görə də, həmin şəxsə münasibətdə yalnız intizam tənbehi tətbiq edilə bilər. Fikrimizcə, korrupsiya ilə əlaqədar hüquqpozmalara məsuliyyətin hüquqi mahiyyəti və növ xüsusiyyəti qanunvericiliklə aydınlaşdırılmadan onun tətbiqində yaranan qeyri-müəyyənliyi aradan qaldırmaq mümkün olmayacaqdır. Buna görə də, Dövlət qulluğu haqqında və Korrupsiyaya qarşı mübarizə haqqında Qanunlara müvafiq dəyişikliklərin edilməsi zəruri hesab edilir. Bundan əlavə olaraq, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası [9] dövlət qulluqçularının fəaliyyətində korrupsiyaya qarşı mübarizənin səmərəliliyinin daha da artırılması, aşkar edilmiş nöqsanların aradan qaldırılması, dövlət qulluqçuları tərəfindən törədilən korrupsiya ilə əlaqədar hüquqpozmaların ağır nəticələri və tətbiq ediləcək tənbehlər barədə metodiki tövsiyələr hazırlamalıdır.

**Nəticə.** Tədqiqatın yekunu olaraq aparılmış təhlillər və ümumiləşdirmələr əsasında elmin zənginləşməsinə və qüvvədə olan qanunvericiliyin təkmilləşdirilməsinə dair aşağıdakı mühüm nəticələr əldə olunmuşdur:

1) Azərbayanda korrupsiyaya qarşı mübarizə sahəsində dövlət siyasəti Prezident İlham Əliyev cənabları tərəfindən əzmlə, uğurla davam və inkişaf etdirilərək qətiyyətlə həyata keçirilir, qanunvericilik bazası mütəmadi olaraq təkmilləşdirilir, əməli tədbirlər görülür və bir sıra səmərəli institusional mexanizmlər tətbiq edilir. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev cənablarının dövlətə, xalqa və bəşəriyyətə xidmət edən ülvi ideyaları, inkişafın Azərbaycan modelinin əsasını təşkil edən kompleks xarakterli islahatları Azərbaycanın dövlətçilik tarixində, ölkədaxili, regional və beynəlxalq ictimai-siyasi mühitdə **"İlham Əliyev islahatları", "Dövlət idarəetməsində İlham Əliyev təcrübəsi"** statusu qazanmış və dövlət başçıları üçün mütə-

rəqqi təcrübə mənbəyinə çevrilmişdir. **“Dövlət idarəetməsində İlham Əliyev təcrübəsi”** özündə müasir Azərbaycanın inkişaf modelinin nümunəvi göstəricilərini, dünya liderləri üçün örnək olan dövlət idarəetmə metodlarını və institusional mexanizmləri ifadə edir. Prezident İlham Əliyev cənablarının elmi xarakterli, dəyərli fikirləri dövlət başçısının bəşəri bəla olan korrupsiyaya qarşı mübarizə sahəsində mövqeyini açıq ifadə edir, dövlət idarəetməsi və dövlət qulluğu sistemində, dövlət vəzifəli şəxslərin və dövlət qulluqçularının fəaliyyətində korrupsiyaya səbəb ola biləcək halların qarşısının alınmasına, dövlət idarəetməsində səmərəliliyin təmin edilməsinə yönəlmişdir.

2) Korrupsiya hər bir ölkənin təhlükəsizliyinə təhdid yaradır, cəmiyyətin inkişafına xələl yetirir, əlverişli biznes mühitinin yaranmasına mane olur və hüquqi nihilizmə gətirib çıxarır. Dövlət qulluğu sistemində korrupsiya ilə əlaqədar hüquqpozmalarına qarşı preventiv tədbirlərin zəruriliyi məcmu olaraq xüsusi növ intizam məsuliyyətinin mövcudluğunu şərtləndirir. Dövlət qulluğu sistemində elektron hüquq münasibətləri daha da geniş vüsət almalı və rəqəmsal hökumətə keçid təmin edilməlidir. Yeni növ ictimai münasibətlərin formalaşması və inkişafı, dövlət qulluğu sistemində elektron hüquq münasibətlərinin daha geniş bərqərar edilməsi özündə dövlət qulluqçularının intizam məsuliyyətinin xüsusi növünün formalaşmasına səbəb olur.

3) Elmi baxışlar belə qənaətə gəlməyə əsas verir ki, müəlliflər korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçularının intizam məsuliyyətində xüsusi elementlərə bu və ya digər aspektlər üzrə toxunurlar, lakin, onu xüsusi növ intizam məsuliyyəti kimi təqdim və təhlil etmirlər. Dövlət qulluğu sistemində korrupsiya hüquqpozmaları dövlət qulluqçularının hüquqi məsuliyyətinin müxtəlif növlərinin, o cümlədən intizam məsuliyyətinin yaranmasına səbəb olur. Sosial, siyasi və hüquqi əhəmiyyətinə görə dövlət qulluqçularının intizam məsuliyyəti ümumi və xüsusi elementlərə görə fərqlənir. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinə cəlb edilməsi hüquqi və sosial əhəmiyyət kəsb edir.

4) Azərbaycanda korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinə cəlb edilməsinin hüquqi əsasları Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmişdir. Həmin Qanun dövlət qulluqçularının intizam məsuliyyəti institutunun ümumi və xüsusi növə ayrılmasına səbəb olmuşdur. Dövlət qulluqçularının intizam məsuliyyəti institutuna ümumi normalarla yanaşı, korrupsiya hüquqpozmalarına görə intizam məsuliyyətini tənzimləyən xüsusi normalar daxil edilmişdir. Bunun hüquqi mahiyyəti və intizam məsuliyyəti ilə əlaqəsi nə elmdə, nə də hüquq tətbiqi təcrübəsində hələ də özünü tam ifadə etməmişdir. Korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinə dair tədbirlərin səmərəli tətbiqinin hüquqi tənzimlənməsi ardıcıllıq, hüquqi terminologiyanın vəhdəti, hüquq tətbiqi üçün aydın və bir sıra əsas tələblərə cavab verməlidir. Bu amillərin birliyi dövlət qulluqçularının intizam məsuliyyəti institutunun keyfiyyətini təmin etmiş olar.

5) Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanununda intizam məsuliyyətinə verilmiş anlayışın məzmununda onun xüsusiləşdirilmiş xarakteri təsbit edilir. Burada verilmiş tərkib elementlər, o cümlədən, Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmamasına görə intizam tənbehinin tətbiqini nəzərdə tutan normalar dövlət qulluğu sistemində intizam məsuliyyətini xüsusiləşdirir, dövlət qulluqçusuna münasibətdə məxsusi intizam məsuliyyətinin yaranmasını özündə ifadə edir. İntizam məsuliyyətinə verilmiş anlayışın məzmunu dövlət qulluqçusunun fəaliyyətinin əmək hüquqi xarakterini bir daha qanunvericilik vasitəsilə leqal olaraq təsdiq edir. Digər tərəfdən, intizam məsuliyyəti dövlət qulluğu sistemi üçün xüsusiləşdirilmişdir, lakin tam ifadə edilməmişdir. Bununla yanaşı, Dövlət qulluğu haqqında Azərbaycan Respublikası Qanunun 25-ci maddəsində nəzərdə tutulmuş intizam məsuliyyətinin tərkib elementləri ilə uyğunsuzluq müşahidə edilir. Belə ki, korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun intizam məsuliyyətinə dair məsələ həmin anlayışda təsbit edilmir. Buna görə də, Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanunun 1.1.26-cı maddəsinin aşağıdakı məzmunda yeni redaksiyada verilməsi məqsədəmüvafiq olardı:

**“1.1.26. dövlət qulluğu sistemində intizam məsuliyyəti – dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsinə (intizam xətasına), habelə bu Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmamasına görə bu Qanunda nəzərdə tutulmuş intizam tənbehinin tətbiqini nəzərdə tutan ümumi xarakterli hüquqi məsuliyyət növü (ümumi növ intizam məsuliyyəti); korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) xüsusi xarakterli hüquqi məsuliyyət növü (xüsusi növ intizam məsuliyyəti);”.**

6) Elmi təhlil belə qənaətə gəlməyə əsas verir ki, Dövlət qulluğu haqqında Azərbaycan Respublikası Qanununun “Dövlət qulluqçusunun məsuliyyəti” adlanan 25-ci maddəsi natamamdır, həmin Qanunun korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə intizam məsuliyyətini nəzərdə tutan 25.2 və 25.11-ci maddələri ilə uzlaşmır. Qanunda mövcud olan uyğunsuzluğu aradan qaldırmaq üçün Dövlət qulluğu haqqında Azərbaycan Respublikası Qanununun 25.1-ci maddəsinin aşağıdakı məzmunda yeni redaksiyada verilməsi məqsədəuyğun heab edilir:

**“25.1. Dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsi, habelə bu Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmaması (ümumi növ), korrupsiya ilə əlaqədar hüquqpozmaları törətdikdə (xüsusi növ) qanunda başqa qayda nəzərdə tutulmayıbsa, intizam məsuliyyətinə səbəb olur.”.**

7) Dövlət qulluqçusunun intizam məsuliyyətinin yaranmasına səbəb olan aşağıdakı üç ümumi, iki xüsusi istiqamət müəyyən edilir:

**dövlət qulluqçusunun ümumi növ intizam məsuliyyətinin səbəbləri:**

➢ dövlət qulluqçusu tərəfindən qanunla müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi onun ümumi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur;

➢ dövlət qulluqçusu tərəfindən qanunla müəyyən edilmiş vəzifələrin lazımi şəkildə yerinə yetirilməməsi onun ümumi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur;

➢ dövlət qulluqçusu tərəfindən qanunla dövlət qulluğu ilə əlaqədar müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmaması onun ümumi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur.

**dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyətinin səbəbləri:**

➢ dövlət qulluqçusu maliyyə xarakterli tələblərə əməl etmədikdə bu hal onun xüsusi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur;

➢ dövlət qulluqçusu korrupsiya ilə əlaqədar hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) bu hal onun xüsusi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur.

Dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyətinin yaranma əsaslarının ciddiliyini nəzərə alaraq korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə hüquqi əsaslar aşkar edildiyi gündən üç ay keçənədək dövlət qulluqçularına intizam tənbehinin verilməsi məqsədəmüvafiq olardı.

Dövlət qulluğu haqqında Azərbaycan Respublikası Qanunun 25.11-ci maddəsinin ləğv edilməsi və aşağıdakı məzmunda 25-1-ci maddənin əlavə edilməsi məqsədəmüvafiq hesab edilir:

**“Maddə 25-1. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti**

**25-1.1. Dövlət qulluqçusu “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) 6-cı və 9-1-ci maddələrinə müvafiq olaraq xüsusi növ intizam məsuliyyətinə cəlb olunur.**

**25-1.2. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularına intizam tənbehi bu Qanunun 25.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar aşkar edildiyi gündən üç ay keçənədək verilə bilər.**

**25-1.3. Dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyətinə dair digər məsələlər qanunvericiliyə uyğun olaraq tənzimlənir.”.**

8) Dövlət qulluğu haqqında Azərbaycan Respublikası Qanununun 25.6-cı maddəsində korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsu-

liyyəti diqqətdən kənar qalmışdır. Bu hal qanunvericilikdəki boşluqlardan biridir. Bu boşluğu aradan qaldırmaq və dövlət qulluqçusunun intizam məsuliyyətini daha da gücləndirmək məqsədilə həmin maddənin aşağıdakı redaksiyada verilməsi məqsədəmüvafiq hesab edilir:

**"25.6. Bu Qanunun 25.2.6-cı maddəsində nəzərdə tutulmuş intizam tənbeh tədbiri vəzifələrin icrası zamanı kobud və ya mütəmadi olaraq pozuntulara yol verildikdə və ya bu Qanunun 20-ci maddəsində nəzərdə tutulmuş məhdudiyyətlərə əməl edilmədikdə və ya "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə tətbiq oluna bilər.".**

9) Dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti korrupsiya ilə əlaqədar hüquqpozmaları ilə bilavasitə şərtlənir və heç bir şübhə doğurmur. Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanununun 6-cı maddəsində "Maliyyə xarakterli tələblərin pozulmasına görə məsuliyyət"ə dair normalar əmək hüquqi xarakterlidir, buna görə də, maliyyə xarakterli tələblərin pozulmasına görə məsuliyyətə cəlb olunma halında intizam məsuliyyəti nəzərdə tutulur. Həmin maddənin adının məzmununa uyğunlaşdırılmasına və yeni redaksiyada verilməsinə ehtiyac vardır. Həmin uyğunsuzluğu aradan qaldırmaq üçün Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin adının aşağıdakı redaksiyada verilməsi məqsədəmüvafiq olardı:

**"Maddə 6. Maliyyə xarakterli tələblərin pozulmasına görə xüsusi növ intizam məsuliyyəti".**

Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində təsbit edilmiş korrupsiya ilə əlaqədar hüquqpozmalarına dair normalarla dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti bilavasitə xarakterizə edilir. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyəti iki istiqamət üzrə təzahür edir:

1) bilavasitə korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti;

2) korrupsiyaya şərait yaradan hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti.

Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanununa aşağıdakı məzmunda 9-1-ci maddənin əlavə edilməsi məqsədəmüvafiq hesab edilir:

**"Maddə 9-1. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti**

**9-1.1. Dövlət qulluqçusu bu Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) 6-cı maddəsinə müvafiq olaraq xüsusi növ intizam məsuliyyətinə cəlb olunur.**

**9-1.2. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti ilə əlaqədar digər məsələlər Azərbaycan Respublikasının dövlət qulluğu haqqında qanunvericiliyi və əmək qanunvericiliyi ilə tənzimlənir.".**

10) "Dövlət orqanlarında dövlət qulluqçuları barəsində tətbiq olunmuş intizam tənbehi tədbirlərindən şikayət verilməsi qaydası haqqında Əsasnamə"də nəzərdə tutulmuş "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu məsələləri üzrə Komissiya"nın ləğv edilməsinə baxmayaraq həmin Əsasnamənin məzmununda müvafiq dəyişiklik aparılmamışdır. Buna görə də, həmin Əsasnamənin 3-cü bəndində nəzərdə tutlmuş "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu məsələləri üzrə Komissiyaya (bundan sonra - Komissiya)" sözlərinin "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə" (bundan sonra – Dövlət Əmək Müfəttişliyi Xidmətinə)" sözləri ilə, o cümlədən Əsanamənin müvafiq hissələrində "Komissiya" sözü ismin müvafiq hallarında "Dövlət Əmək Müfəttişliyi Xidməti" sözləri ilə əvəz edilməsi məqsədəmüvafiq hesab edilir.

11) Elmi müddəaların və qanunvericiliyin təhlili belə qənaətə gəlməyə əsas verir ki, dövlət qulluqçularının intizam məsuliyyətinə

cəlb edilməsini iki növ üzrə xarakterizə etmək olar:

1) intizam xətasına görə dövlət qulluqçusunun ümumi növ intizam məsuliyyəti;

2) korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti.

Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının intizam məsuliyyətini tənzimləyən normativ müddəalar göstərir ki, korrupsiyaya qarşı mübarizənin səmərəliliyini artırmaq məqsədilə dövlət qulluqçuları üçün bir sıra məhdudiyyətlər və qadağalar müəyyən edilmişdir. Çünki, korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə məsuliyyətin əsas subyektlərindən biri məhz korrupsiyaya qarşı mübarizəyə dair vəzifələr həvalə edilmiş dar aspektdə dövlət qulluqçularıdır, daha geniş aspektdə isə dövlət vəzifəli şəxslərdir. Korrupsiya ilə əlaqədar hüquqpozmaları törətmiş dövlət qulluqçusunun əməli əsasən xüsusi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur və buna görə də, intizam tənbehi tətbiq edilə bilər. Dövlət qulluğu haqqında və Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanunlarında müvafiq dəyişikliklərin edilməsi zəruri hesab edilir. Bundan əlavə olaraq, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası dövlət qulluqçularının fəaliyyətində korrupsiyaya qarşı mübarizənin səmərəliliyinin daha da artırılması, aşkar edilmiş nöqsanların aradan qaldırılması, dövlət qulluqçuları tərəfindən törədilən korrupsiya ilə əlaqədar hüquqpozmaların ağır nəticələri və tətbiq ediləcək tənbehlər barədə metodiki tövsiyələrin hazırlanması məqsədəmüvafiq hesab edilir.

### Ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq Yayın Evi, 2016, 92 s.

2. Azərbaycan Respublikası Cinayət Məcəlləsi. Bakı: Qanun, 2023, 672 s.

3. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Bakı: Qanun, 2023, 504 s.

4. "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308-ci maddəsinin "Qeyd" hissəsində nəzərdə tutulmuş "vəzifəli şəxs" anlayışının şərh olunmasına dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 2013-cü il 19 iyul tarixli Qərarı // Respublika. – 2013, 7 avqust. №171

5. Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli 739 nömrəli Sərəncamı / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, №11, maddə 2395

6. "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın 2023-2025-ci illərdə icrası üzrə Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 3696 nömrəli Sərəncamı // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, №12, maddə 1524

7. Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 766-VQ nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, №08, maddə 1515

8. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanı / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, №04, maddə 665

9. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 2005-ci il 3 may tarixli 906-IIQ nömrəli Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 06, Maddə 470

10. Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının 2005-ci il 30 sentyabr tarixli 1003-IIQ nömrəli Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, №10, maddə 890

11. Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının 2000-ci il 21 iyul tarixli 926-IQ nömrəli Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 01, maddə 1

12. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edil-

məsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 825-VIQD nömrəli Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, №4, maddə 459

13. Dövlət qulluqçularının etik davranış qaydaları haqqında Azərbaycan Respublikasının 2007-ci il 31 may tarixli 352-IIIQ nömrəli Qanunu // Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 2007, №08, maddə 750

14. Dövlət orqanlarında dövlət qulluqçuları barəsində tətbiq olunmuş intizam tənbehi tədbirlərindən şikayət verilməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 571 nömrəli Fərmanı // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, №09, maddə 586

15. Əliyev, İ.H. İnkişaf – məqsədimizdir. Səksən altıncı kitab / – Bakı: Azərnəşr, 2019. – 392 s.

16. Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının 2004-cü il 13 yanvar tarixli 580-IIQ nömrəli Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, №03, Maddə 125

17. "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 2003-cü il 30 dekabr tarixli 570-IIQ nömrəli Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, №01, maddə 11

18. "Korrupsiya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 2003-cü il 30 dekabr tarixli 571-IIQ nömrəli Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, №01, maddə 12

19. Qədirov, A.X. Korrupsiya cinayətlərinin anlayışı, mahiyyəti və kriminalistik xarakteristikası. Monoqrafiya / A.X.Qədirov. – Bakı: Elm və təhsil, 2014. – 196 s.

20. Qədiməliyev, A.R. Konstitusiya islahatları: konseptual modellər və realizə problemləri: / hüquq üzrə elmlər doktoru dis. avtoreferatı. / – Bakı, 2023. – 58 s.

21. Məmmədov, O.C. Dövlət qulluğu peşəkar əmək fəaliyyətinin xüsusi növü kimi: hüquqi modeli // – Bakı: Polis Akademiyasının Elmi Xəbərləri, Elmi hüquq jurnalı, – 2017. №1, – s.128-141.

22. Məmmədov, O.C. Dövlət qulluğu sistemində korrupsiyaya qarşı mübarizənin hüquqi təminatları. Dərs vəsaiti / O.C.Məmmədov. – Bakı: Elm və təhsil, – 2018. – 180 s.

23. Məmmədov, O.C. Dövlət vəzifəli şəxslər korrupsiya hüquqpozmalarının subyekti kimi // – Bakı: Dirçəliş – XXI əsr, – 2018. №185, – s. 88-102.

24. Məmmədov, O.C. Korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçularının məsuliyyətinin konstitusion-hüquqi elementləri // – Bakı: Məhkəmə Ekspertizası, Kriminalistika və Kriminologiyanın Aktual Məsələləri, Elmi əsərlər məcmuəsi, – 2019. №67, – s. 61-74.

25. Məmmədov, O.C. Dövlət qulluqçularının konstitusion əmək hüquq subyektliyi: ümumnəzəri və sahəvi xüsusiyyətləri // – Bakı: Bakı Universitetinin Xəbərləri, Sosial-siyasi elmlər seriyası, – 2018. №1, – s. 24-42. : http://static.bsu.az/w1/PDF%202019/sosial-1-2018.pdf

26. Məmmədov, O.C. Dövlət qulluqçularının əmək münasibətlərinin tənzimlənməsi sistemində konstitusiya, inzibati, əmək və sosial təminat hüquq normalarının nisbəti // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, Sosial elmlər, – 2019. №02, – s. 77-90. : https://socialsciences.az/az/magazine-detail/54

27. Məmmədov, O.C. Dövlət qulluqçularının konstitusion-hüquqi məsuliyyətinin tərkib elementləri: elmi-nəzəri və konseptual yanaşma // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, Sosial elmlər, – 2019. №01, – s. 119-128.: https://socialsciences.az/az/magazine-detail/53

28. Məmmədov, O.C. Dövlət qulluqçularının hüquqi məsuliyyəti: nəzəri-konseptual və metodoloji yanaşma // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, Sosial elmlər, – 2021. №1, – s. 187-204. : https://socialsciences.az/az/magazine-detail/59

29. Məmmədov, O.C. Dövlət qulluqçularının fəaliyyətində korrupsiya hüquqpozmaları: nəzəriyyə və təcrübə // – Bakı: Qanun, – 2021. №04 (318), – s. 21-30.

30. Məmmədov, V.Q. Korrupsiya ilə bağlı cinayətlərlə mübarizənin problem məsələləri / V.Q.Məmmədov. – Bakı: Adiloğlu, – 2006. – 186 s.

31. Novruzov, V.T. İqtisadi siyasətdə şəffaflıq amili // Azərbaycan. – 2010, 1 avqust. – s. 4.

32. Rzayev, Ə.H. Dövlət qulluğunun hüquqi əsasları / Ə.H.Rzayev. – Bakı: Elm, – 2011. 480 s.

33. Süleymanov, C.A. Azərbaycan Respublikasının Konstitusiyasında xalq hakimiyyəti konsepsiyası (monoqrafiya): - Bakı: - 2021. - 754 s. (elektron nəşr), https://www.lhri.az/az/library-books/Azərbaycan%20Respublikasının%20Konstitusiyasında%20xalq%20hakimiyyəti%20konsepsiyası%20%28monoqrafiya%29

34. Siyasi və ictimai müzakirələr zamanı tez-tez “korrupsiya” sözünü eşidirik. Nədir bu danışılan korrupsiya? Necə işləyir? Hansı növləri var? Bizə necə təsir edir? // http://xocavend-ih.gov.az/az/news/siyasi-ve-ictimai-muzakireler-zamani-tez-tez-korrupsiya-sozunu-esidirik-nedir-bu-danisilan-korrupsiya-nece-isleyir-hansi-novleri-var-bize-nece-tesir-edir.html

35. “Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli 945-IIQ nömrəli Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, №08, maddə 690

36. Авдеева, О.А., Авдеев, В.А. Антикоррупционное законодательство России: ретроспективный анализ формирования механизма правового воздействия // – Москва: Lex russica (Русский закон), 2020. 73(1): с.59-69. https://doi.org/10.17803/1729-5920.2020.158.1.059-069

37. Ванновская, О.В. Психология коррупционного поведения государственных служащих: монография / О.В.Ванновская. – Москва: Юрайт, – 2019. – 251 с.

38. Добробаба, М.Б. Дисциплинарная ответственность: правовые механизмы обеспечения эффективности в системе государственной службы / М.Б.Добробаба, М.В.Пресняков, С.Е.Чаннов. – Москва: Норма, – 2023. – 352 с.

39. Добробаба, М.Б., Чаннов С.Е. Ответственность государственных служащих за коррупционные правонарушения: проблемы оптимизации модели // – Москва: Журнал российского права, – 2021. – Т. 25, №11. – с. 88-101.

40. Жильцов М.А. Проблемы привлечения к дисциплинарной ответственности медицинских работников // – Москва: Трудовое право в России и за рубежом, – 2021. №4, – с. 38-41.

41. Карагодин, Н., Карагодина, И. Формирование корпуса государственных служащих: зарубежный опыт для России // – Москва: Международная экономка и международные отношения, – 1993. № 2, – с.78-90.

42. Костенников, М.В., Куракин, А.В. Административно-правовые средства противодействия коррупции в системе государственной службы Российской Федерации // – Москва: Государство и право. 2009. №12, – с.15-24

43. Куракин, А.В. Государственная служба и коррупция. Монография / А.В.Куракин. – Москва: Nota Bene, – 2009. – 328 с.

44. Лещина, Э.Л. Гарантии законных прав государственных служащих при привлечении их к дисциплинарной ответственности за нарушение служебной дисциплины // Актуальные проблемы административного и административно-процессуального права. Сборник статей по материалам международной научно-практической конференции. – Санкт-Петербург: Санкт-Петербургский университет Министерства внутренних дел Российской Федерации, – 27 март 2020, 2020. с. 151-155.

45. Мамедов, О.Д., Велиева, Д.С. Юридическая ответственность государственных служащих за коррупционные правонарушения (опыт Азербайджана и России) // – Саратов: Вестник Поволжского института управления. Научный журнал. (Учредитель - Российская академия народного хозяйства и государственной службы при Президенте Российской Федерации). Поволжский институт управления имени П.А.Столыпина. – 2020. Том 20, №04, – с. 4-16.

46. Майоров, В.И., Пестов, Р.А. Специфика дисциплинарной ответственности государственных служащих за коррупционные

правонарушения // – Ростов-на-Дону, Юристъ-Правоведъ, 2023. №1(104), – с. 35-41.

47. "Модельный закон основы законодательства об антикоррупционной политике" Постановление №22-15 от 15 ноября 2003 года Межпарламентская Ассамблея государств-участников Содружества Независимых Государств / Информационный бюллетень, 2004, №33, с.225 / http://iacis.ru/upload/iblock/e78/151.pdf

48. Овсянко, Д.М. Государственная служба Российской Федерации / Д.М.Овсянко. – Москва: Юрист, – 2008. – 447 с.

49. Панкратов, А.Ю., Слепнева, Э.И. Привлечение к ответственности за дисциплинарные проступки и коррупционные правонарушения: Практическое пособие / А.Ю.Панкратов, Э.И.Слепнева. – Казань: – 2017, 38 с.

50. Перевалов, В.Д. Теория государства и права: учебник и практикум / В.Д.Перевалов. – Москва: Юрайт, – 2019. – 341 с.

51. Савин, С.А. Проблемы применения механизма дисциплинарной ответственности государственных служащих за коррупционные правонарушения // Научный электронный журнал "Академическая публицистика", – 2023. №3-1, – с. 141-147.

52. Терещук, С.С. К вопросу о разграничении дисциплинарного проступка и дисциплинарного коррупционного правонарушения // – Саратов: Вестник Саратовской государственной юридической академии, – 2023. №1(150), – с.137-142.

53. Чаннов, С.Е. Служебное право Российской Федерации. Учебное пособие / С.Е.Чаннов, М.В.Пресняков. – Москва: Норма; ИНФРА-М, 2011. – 448 с.

54. Чернышева, Л.А. Дисциплинарная ответственность государственных служащих за предоставление недостоверных или неполных сведений о доходах и расходах // – Санкт-Петербург: Криминалистъ, – 2015. №2 (17), – с. 44-47.

55. Mammadov, O.J.O. (2023). State Administrative and Contractual Character of Labor Law Relations of Civil Servants. International Journal of Professional Business Review, 8(8), e03152. p.1-18 https://doi.org/10.26668/businessreview/2023.v8i8.3152

## Резюме

**Орудж Мамедов**

### Специальный вид дисциплинарной ответственности государственных служащих за коррупционные правонарушения: теоретико-правовая модель

В статье проанализированы научные и нормативные положения о теоретико-правовой модели особого вида дисциплинарной ответственности государственных служащих за совершенные ими правонарушения, связанные с коррупцией. Впервые систематически анализируется теоретико-правовая модель особого вида дисциплинарной ответственности государственных служащих за правонарушения, связанные с коррупцией. Этот фактор включает в себя актуальность выбранной темы для азербайджанской юридической науки, необходимость ее анализа, научную новизну и практическую значимость данной темы.

В статье рассмотрена государственная политика по особому виду дисциплинарной ответственности государственных служащих за правонарушения, связанные с коррупцией; обобщены теоретические положения; проанализирована законодательная база, предусматривающая особый вид дисциплинарной ответственности государственных служащих за коррупционные правонарушения, выявлены противоречия в законодательстве и даны пути их решения; выделены составные элементы общего и специального вида дисциплинарной ответственности государственных служащих; высказаны научные положения, характеризующие теоретико-правовую модель особого вида дисциплинарной ответственности государ-

ственных служащих за коррупционные правонарушения, а также сделаны предложения по совершенствованию законодательства.

В статье отмечается, что коррупция представляет угрозу для безопасности каждой страны, подрывает развитие общества, мешает созданию благоприятной деловой среды и способствует юридическому нигилизму. В системе государственной службы необходимость совокупности превентивных мер против правонарушений, связанных с коррупцией, обуславливает существование особого вида дисциплинарной ответственности. Привлечение государственных служащих к дисциплинарной ответственности можно охарактеризовать по двумя видам: 1) общий вид дисциплинарной ответственности государственных служащих за дисциплинарные проступки; 2) особый вид дисциплинарной ответственности государственного служащего за правонарушения, связанные с коррупцией.

В заключении была выражена научная концепция теоретико-правовой модели особого вида дисциплинарной ответственности государственных служащих за коррупционные правонарушения и выдвинуты предложения по совершенствованию законодательства.

***Ключевые слова:*** *государственная служба, коррупционные правонарушения, особый вид дисциплинарной ответственности*

**Summary**

**Oruj Mammadov**

**Special type of disciplinary liability of civil servants for corruption offenses: theoretical-legal model**

In the article, the scientific and normative provisions on the theoretical-legal model of the special type of disciplinary liability of civil servants for their corruption-related offenses were analyzed.

For the first time, the theoretical-legal model of the special type of disciplinary liability of civil servants for corruption-related offenses is systematically analyzed. This factor contains the relevance of the topic chosen for Azerbaijan legal science, the necessity of its analysis, scientific novelty and practical significance.

In the article, the state policy on the special type of disciplinary liability of civil servants for corruption-related offenses was reviewed; theoretical provisions was summarized; the legislative framework that stipulates the special type of disciplinary liability of civil servants for corruption offenses was analyzed, contradictions in the legislation were revealed and solutions were given; the constituent elements of general and special type of disciplinary liability of civil servants are distinguished; the scientific clauses characterizing the theoretical-legal model of the special type of disciplinary liability of civil servants for corruption offenses were expressed and suggestions were made for improving the legislation.

The article it was shown that corruption threatens the security of every country, undermines the development of society, prevents the creation of a favorable business environment and causes to legal nihilism. In the civil service system, the need for preventive measures against corruption-related offenses collectively determines the existence of a special type of disciplinary responsibility. Disciplinary liability of civil servants can be characterized by two types: 1) general disciplinary liability of civil servants for disciplinary errors; 2) special type of disciplinary liability of a civil servant for corruption-related offenses.

In conclusion, the scientific concept of the theoretical-legal model of the special type of disciplinary liability of civil servants due to corruption offenses was expressed and a proposal was nominated to improve the legislation.

***Keywords:*** *civil service, civil servant, corruption offences, special type of disciplinary responsibility*